# Azərbaycan Respublikası “Dövlət Qurumlarında İnformasiya Şəffaflığının Ölçülməsi” Təşəbbüsü

## YEKUN HESABAT

***Monitorinq dövrü:*** ***1 yanvar-31 mart 2023***

## I. Giriş

Azərbaycan Respublikasında “Dövlət Qurumlarında İnformasiya Şəffaflığının Ölçülməsi” Təşəbbüsü ardıcıl olaraq, bir neçə ildir aparılır. Sonuncu hesabat 2022-ci ilin əvvəlində 2021-ci ilin vəziyyətini əksetdirmişdi. Bu hesabat 2022-ci il başa çatandan dərhal sonra 2023-cü ilin yanvar-mart aylarında həyata keçirilib və 2022-ci ilin vəziyyətini əksetdirir.

“Dövlət Qurumlarında İnformasiya Şəffaflığının Ölçülməsi” Təşəbbüsü çərçivəsində İnformasiya əldə etmək haqqında Azərbaycan Respublikası Qanununun 9-cu maddəsində müəyyən edilən informasiya sahibləri arasından, *14 dövlət qurumu, 17 nazirlik, 7 komitə, 19 dövlət xidmətləri, 30 agentlik, 20 Açıq Səhmdar Cəmiyyəti (ASC) və Qapalı Səhmdar Cəmiyyəti (QSC), 28 fondlar, idarələr, mərkəzlər, MMC-lər, 16 şirkətlər, komissiyalar, institutlar və digər qurumlar* olmaqla monitorinqi aparılımışdır. **Ümumilikdə möcud qanunvericiliyə əsasən informasiya sahibi rolunda mövcud olan 151 dövlət qurumu və hüquqi şəxslərin rəsmi saytı monitorinq olunub**.

Dövlət qurumlarının informasiya resurslarının “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğunluğu rəsmi internet resurslarının informasiya açıqlığının vəziyyəti müxtəlif metodlarla monitorinq edilib. Bu zaman xüsusilə Qanunun 29-cu maddəsində açıqlanması zəruri olan informasiyaların açıqlıq vəziyyəti öyrənilib.

1.Mərkəzi icra hakimiyyəti orqanlarının rəsmi internet saytlarının onlayn şəffaflıq vəziyyəti ***13 parametr və 59 qiymətləndirici meyarlar üzrə*** (Cədvəl-1) analiz olunmuşdur. Dövlət qurumlarının rəsmi internet resurslarında onlayn şəffaflıq vəziyyətini ölçmək üçün rəsmi saytlarda yerləşdirilən 8968 informasiya blokunun hər biri fərdi analiz edilib.

2. Dövlət qurumlarının dövlət xidmətləri ilə bağlı vahid məlumat portalına (https://www.dxr.az ) inteqrasiyasının real vəziyyəti araşdırılıb.

3. Dövlət qurumlarının göstərdiyi elektron xidmətlərin https://www.e-gov.az vəziyyəti təhlil edilmişdir. İnformasiyaların və xidmətlərin kəmiyyət və keyfiyyət cəhətdən hərtərəfli analiz edilməsi məqsədi ilə 10562 bloka giriş edilib.

Xatırladaq ki, 2020-ci ilin monitorinqi zamanı Dövlət Xidmətlərinin sayı müvafiq olaraq 774 idi. 2021-ci ilin monitorinqi zamanı bu siyahı 1041-ə yüksəldi. Hazırda, vahid məlumat portalında 3532 dövlət xidmətləri qeyd olunub. ***Ötən hesabat dövrü ilə müqayisədə xidmətlərin sayının 3.3 dəfə artmasının səbəbi 79 Yerli İcra Hakimiyyətləri orqanlarının göstərdikləri xidmətlərlə***

***əlaqəlidir.*** Belə ki, 79 rayonda ayrılıqda göstərilən eyni xidmətlərin (79x30) cəmi 2379-dur. Əvvəlki hesabat dövründə yerli icra hakimiyyəti orqanlarının göstərdikləri xidmətlər açıqlanmırdı. Əgər öncəki illərdəki statistika ilə müqayisə aparsaq, Mərkəzi İcra hakimiyyəti, digər büdcə təşkilatları və hüquqi şəxslərin göstərdikləri xidmətlər 1153 olub. **2021-ci illə müqayisədə xidmətlər cəmi 0.9 % artıb.**

Yekun Hesabat dövlət qurumlarının informasiya resurslarının Parametrlər üzrə ümumi mənzərəsini, yetərli və dolğun bilgi verməsini, saytın texniki imkanlarını və funksionallığını, habelə, Dövlət Xidmətləri Portalında (www.dxr.az ) və e-xidmətlərin (https://www.e-gov.az ) məlumat bazasının mövcud durumunu ayrılıqda və dolğun şəkildə təqdim edib.

Eyni zamanda Hesabatda dövlət qurumlarının internet saytlarında çatışmayan bilgilər və bu çatışmazlıqların aradan qaldırılması və saytların təkmilləşdirilməsi istiqamətdə bəzi tövsiyələr də verilib.

**II. Mərkəzi icra hakimiyyəti orqanlarının Monitorinqi**

2020-ci ildə həyata keçirilən monitorinqdə 81, 2021-ci il isə 154 mərkəzi icra hakimiyyəti orqanları və onlara tabe qurumlar monitorinq olunub. *Bu il isə 151 qurum monitorinq edilib.*
Monitorinqə cəlb edilmiş Mərkəzi icra hakimiyyəti orqanlarının (Cədvəl-2) informasiya açıqlığı analiz edilib.
Ötən monitorinqlə müqayisədə 4 parametr üzrə 16 qiymətləndirici meyarlarda artım olub. 6 *parametr üzrə 26 qiymətləndirici meyarlarda nəticələr sabit qalıb.* 3 parametr 16 qiymətləndirici meyarlarda azalma müşahidə edilib.
Ötən dövrdə dəyişiklik nisbətinə nəzər salsaq, 4 parametr üzrə 14 qiymətləndirici meyarlarda artım, 3 parametr üzrə tam və digər parametrlər üzrə 23 qiymətləndirici meyarlarda sabit, 6 parametr 22 qiymətləndirici meyarlarda isə azalma müşahidə edilib.

***Artan parametrlər:***

- *(2) Ziyarətçilərin dövlət qurumu ilə əlaqə saxlaması üçün imkanlar;*
- *(3) Dövlət qurumunun strukturu;*
- *(6) Ümumi dövlət büdcəsinin quruma aid hissəsi (ayrıntıları ilə) və onun icrası;*
- *(12) Dövlət qurumunun norma - (qanun)yaratma fəaliyyəti üzrə qeydə alınıb.*

***Azalan parametrlər:***

- *(8) İşə qəbul qaydaları və boş iş yerləri haqqında bilgi;*
- *(10) Vətəndaşların qəbul şərtləri və qəbul günləri (saatları);*
- *(11) Tender və yarışmaların keçirilməsi ilə bağlı bütün mümkün qayda və elanlar bölümü üzrə qeydə alınıb.*

**Sabit parametrlər:**

- Dövlət qurumu ilə bağlı informasiya (haqqında);
- (4) Rəhbər və rəhbər işçilər;
- Əks əlaqə;
- (5) Dövlət qurumunun cari fəaliyyəti haqqında informasiya;
- (7) Dövlət qurumu tərəfindən təklif edilən xidmətlər haqqında informasiya;
- (9) Sahə işçilərinin əmək haqları;
- (13) Yuxarıda qeyd edilən informasiyalara giriş üçün texniki imkanlar - bölünü üzrə qeydə alınıb.

Dövlət qurumlarının rəsmi saytlarının Monitorinqi zamanı *ən çox (85-100%) açıqlanan informasiyalar (Cədvəl-14) 25 meyar üzrə 42.37% təşkil edib.* Ötən monitorinq dövründə bu nəticə 28 meyar üzrə 45.2% təşkil etmişdi.

*Əsasən və qismən (50-80%) açıqlanan informasiyalar (Cədvəl-15) 17 meyar üzrə 28.81% olub.* 2021-ci ildə Əsasən və qismən (50-80%) açıqlanan informasiyalar 19 meyar üzrə 32.2% təşkil etmişdi.

*Dövlət qurumlarının rəsmi saytlarında bir qayda olaraq açıqlanmayan və ya səthi açıqlanan (0-45%) informasiyalar isə (Cədvəl-16) 17 meyar üzrə 27.11% olub*. 2021-ci ildə heç açıqlanmayan və ya səthi açıqlanan informasiyalar isə 12 meyar üzrə 20.3% təşkil edib.

Dövlət qurumlarının İnternet resursunun mövcud qaydalara uyğunluğu informasiya soğrularının qəbulu üzrə tələb olunan məlumatlar istisna olmaqla əsasən normaldır və istifadə üçün rahatdır. Əksəriyyət saytlarda geniş bilgilər yer alıb və bölmələr üzrə dolğunluğu qeyd edə bilərik. Saytların texniki imkanları və funksionallığı da əsasən qənaətbəxşdir.

*Bu istiqamətdə ən narahatedici məqam online informasiya soğrularının qəbulu üçün nəzərdə tutulan pəncərədə İnformasiya əldə etmək haqqında Qanunda tələb olunmayan əlavə məlumatların məcburi tələb olunmasıdır.* Ümumi informasiya istəyən soğruçudan qanunla nəzərdə tutulan məlumatların məcburi tələb olunmasından əlavə, ***qanunda tələb olunmayan şəxsiyyət vəsiqəsinin nömrəsi, dəqiq doğum tarixi, fin kodu, təhsili, cinsi və s. məcburi tələb olunur. Bu məlumatların sorğu göndərəndən tələb olunması fərdi məlumatların qanunsuz toplanmasıdır və qanunvericiliklə buna yol verilmir.***

Lakin, saytlarda **çatışmayan bilgilər** də mövcuddur. *Xüsusilə, struktur bölmələrinin səlahiyyət çərçivələri, rəhbərlərin, onun müavinləri və struktur bölmələri rəhbər işçilərinin mövcud tarif stavkası, dövlət qurumunun cari norma- (qayda) yaratma layihələrinin müzakirəsində vətəndaşların iştirak şərtləri, qurumların büdcəsi və onun icrası haqqında məlumat, büdcədənkənar daxilolmalar və onların istiqamətləri barədə informasiyalar, tenderlər, müsabiqələr, dövlət proqramları, illik hesabatlar, dövlət satınalmaları haqqında məlumatlar, habelə, tender və yarışmaların nəticələri ilə bağlı mübahisələrin həlli qaydaları o cümlədən bütün mümkün struktur bölmələrinin rəhbərləri haqqında bioqrafik bilgilər, işə qəbulla bağlı komissiyalar haqqında bilgilər əsasən defsit məlumatlar kateqoriyasına aiddir və cüzi formada açıqlanır.*

İctimai informasiya subyektlərinin informasiya xidmətlərinin fəaliyyəti qənaətbəxş deyil. Xüsusilə, saytların elektron qaydada informasiya əldə etmək üçün yaratdıqları platformaları qanunvericiliyin tələblərinə uyğun formalaşdırılmayıb. Bu sahədə qanunvericilik vahid forma nəzərdə tutsa da, hər qurum öz təsəvvürünə uyğun tələblər qoyub və üstəlik bu tələbləri məcburi tələb kimi sorğuçuya yönəldib. Demək olar ki, mütləq əksəriyyət soğru platformalarında xidmət yalnız vətəndaşalara təqdim edilir. Halbuki, nə **Konstitusiyanın 50-ci maddəsi**, nə də **İnformasiya əldə etmək haqqında Qanunda** yalnız vətəndaşlar sorğu ilə informasiya əldə edə bilər- tələbi mövcud deyil. Konstitusiyaya, Qanuna və Konvensiyaya əsasən hər kəs informasiya əldə edə bilər.

Demək olar ki, böyük əksəriyyət dövlət qurumu saytlarında müraciətlər informasiya sorğusu fərqli məsələlər olmasına baxmayaraq ya eyniləşdirilib, yaxud əlavə şərtlər və tələblər qoyulub. Bir çox dövlət qurumunun rəsmi səhifəsində ümumiyyətlə informasiya sorğusu və müraciət

fərqləndirilməyib. Halbuki müraciət və sorğu fərqli hüquqi nəticələr doğurur və bunlara cavab verilməsi ilə bağlı öhdəliklər, zaman fərqli müəyyən edilib.
Dövlət qurumlarının bütün rəsmi saytlarında fəaliyyət göstərdiyi sahədən asılı olmayaraq hakim siyasi partiyanın və onun əsas rəhbərliyinin təbliğinə dair matereallarin çoxluğundan əsas panellər xeyli mürəkkəb və qarışıqdır. Axtarış sistemində açar sözlərə görə axtarışın qaneedici olmaması, habelə, Sayt strukturunda məlumatların yerləşdirildiyi başlıqların vahid standartda təqdim edilməməsini də müşahidələr arasındadır.
"Google" üzərindən sadə axtarışla tapılan açıq informasiyaların saytın özündə olmaması və ya çox qarışıq alt başlıqlarda gizlədilməsi halları kifayət qədər yayqındır. Dövlət qurumu ilə bağlı bir çox sənədin ziyarətçiyə təqdim olunarkən yalnız məcburi yükləmə sistemli olması, əks əlaqə üçün informasiya sorğusu seçiminin olmaması, habelə, elektron müraciət zamanı əlavə şəxsi məlumatların tələb edilməsi ziyarətçi üçün əlavə çətinliklər yaradır

**III. Dövlət Xidmətləri Reysrtinə inteqrasiyanın monitorinqi.**

Dövlət qurumlarının dövlət xidmətləri ilə bağlı vahid məlumat portalına (https://www.dxr.az ) inteqrasiyasının real vəziyyəti, habelə, dövlət qurumlarının göstərdiyi elektron xidmətlərin (https://www.e-gov.az ) vəziyyəti təhlil edilib.

Dövlət Xidmətləri Portalına (https://www.dxr.az) inteqrasiya öncəki illərdən ciddi şəkildə fərqlənməyib. Hazırda 143 dövlət orqanı Portala inteqrasiya olunub. 2021-ci ilin hesabat dövründə bu say 139 idi. **Keçən müddət ərzində yalnız 4 qurum əlavə olunub**. Portalda təqdim olunan dövlət qurumlarından 79-u Yerli İcra Hakimiyyəti Orqanları, 64 isə Mərkəzi İcra Hakimiyyəti orqanları, Hüquqi şəxslər və digər büdcə təşkilatlarıdır. Lakin, dövlət qurumlarının və digər büdcə təşkilatlarının siyahısı daha genişdir.

Dövlət Xidmətlərinin Elektron Reyestri üzrə siyahıda 1147 xidmətin adı var. Ötən hesabat dövrü bu say 1041 idi. **Yeni 106 xidmət əlavə olunub.** Portalda təqdim edilən Dövlət Xidmətlərinin yalnız 571-dən elektron istifadə mümkündür. Elektronlaşmış xidmətlər 49.7%-dir. Keçən il xidmətlərin 46%-dən istifadə etmək mümkün idi. Bu il 3.7% artıb.

www.e-gov.az saytında təqdim olunan 452 elektron xidmətlərdən istifadə etmək mümkündür. Portalda 330 xidmətə İdentifikasiya nömrəsi, SİMA Rəqəmsal İmza, Asan İmza, SİMA Token (Elektron İmza), BSXM Elektron İmza ilə giriş tələb edilir. Xidmətlərdən 122-nə giriş qeydiyyatsızdır. Bunlar isə əsasən ödəniş xidmətləridir. *SİMA Rəqəmsal İmza və SİMA Token (Elektron İmza) vasitəsi ilə daxilolma 2021-ci ildə mövcud deyildi.* Bu yalnız 2022-ci ilin may ayından tətbiq edilməyə başlayıb.

"ASAN Xidmət" mərkəzlərində göstərilən xidmətlərin sayı keçən hesabat dövrü ilə müqayisədə 48% artaraq 66-dan 98-ə yüksəlib. Eyni zamanda ötən hesabat dövründən sonra Asan Xidmət mərkəzlərinin də sayı 19-dan 24-ə yüksəlib.

Dövlət Xitmətləri Portalında www.dxr.az Xüsusi razılıq (lisenziya), sertifikat, şəhadətnamə tələb olunan 821 xidmət var. Bunlardan 210-u ödənişsiz, 11 ödənişli göstərilir. Lakin, Elektron Hökumət Portalına https://www.e-gov.az inteqrasiya olunan ***Lisenziyalı və icazəli xidmətlərin sayı yalnız 20 (2.4%)-dir. Bunlardan isə 3-nə (0.3%) qeydiyyatsız daxil olmaq mümkündür.***

Dövlət Xitmətləri Portalında sahələr üzrə 1022 xidmət var. Ən çox iqtisadiyyat (380), hüquq və inzibati idarəetmə (235), sosial sahəni (222) əhatə edir. Digər məsələlərdə olduğu kimi Sahələr üzrə də Elektron Hökumət Portalına inteqrasiya çox aşağıdır. Faktiki olaraq e-gov.az Portalında cəmi 155 (15.1%) elektron xidmət var. Bunlardan 47-nə (4.5%) qeydiyyatsız daxil olmaq mümkündür.

İstifadəçi qrupları üzrə Dövlət xidmətlərinin ayrıca 4 istiqamət üzrə bölgüsü aparılıb. Yerli özünüidarəetmə orqanları (607), Dövlət orqanları (681), Hüquqi (1628) və Fiziki (3009) şəxslər üçün xidmətlərin ümumi sayı 5925-dir.

*Elektron formada göstərilən xidmətin sayı keçən hesabat dövrü ilə (554) müqayisədə təqribən 3% artaraq 571 olub.* Asan Xidmət indeksi üzrə 2022-ci ilin yekununda ziyarətçilər elektronlaşma, operativlik, məmnunluq və tələbə uyğunluq baxımından 499 xidməti qiymətləndirib.

Ziyarətçilər xidmətlərdən 87-sini (17.4%) 5 ulduz, 51-ni (10.2%) 4 ulduzla qiymətləndirib. Əla və yaxşı qiymətləndirilən xidmətlər 27.6% olub. Xidmətlərin 193-ü (38.6%) 1 ulduzla, 99-u (19.8%) 2 ulduzla qiymətləndirilib. Müvafiq olaraq 1 və 2 ulduzla qiymətləndirilən xidmətlərin ümumi sayı 292-dir. Ziyarətçi qiymətləndirməsi baxımından ümumi xidmətlərin 58.5% -i çox pis nəticə göstərib. Əgər 3 ulduzlu 69 (13.8%) qiymətləndirməni də buna əlavə etsək, onda 361 (72.3 %) xidmətdən ziyarətçi məmnunluğu qənaətbəxş sayıla bilməz.

Əvvəlki hesabat dövründə 1, 2, 3 ulduzla qiymətləndirilən xidmətlər 82.1%, 4 və 5 ulduzla qiymətləndirilən xidmətlər isə 17.9% təşkil etmişdi. ***Keçən illə müqayisədə bu il təqribən 9.7% müsbət irəliləyiş var.***

Mərkəzi icra hakimiyyəti orqanları arasında 5 ulduzla qiymətləndirilən 87 xidmətin 22-si (25.2%) Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, 12-si (13.7%) Ekologiya və Təbii Sərvətlər Nazirliyinə, 4-ü (4.5%) İqtisadiyyat Nazirliyinə aiddir. 5 ulduzla qiymətləndiriliən xidmətlər arasında Dövlət Statistika Komitəsinin (2) və Elm və Təhsil Nazirliyinin (1) xidməti də var. Hüquqi şəxslərdən 5 ulduzla qiymətləndirilən xidmətlər arasında "Azərsu" ASC (15), "Azərişıq" ASC (15), "Azəriqaz" İstehsalat Birliyi (15) də eyni nəticələri göstərib.

Xatırladaq ki, ötən ilki hesabat dövründə Ən yüksək 5 ulduzla qiymətləndirilən 17 xidmətin 9-u Dövlət Miqrasiya Xidmətinə, 6-sı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, 2-si isə İqtisadiyyat Nazirliyinə məxsus idi.

Monitorinq prosesi monitorlarımız tərəfindən hər bir xidmət üzrə fərdi qeydiyyat aparılmaqla həyata keçirilib. Təqdim etdiyimiz nəticələr Dövlət Agentliyinin rəsmi hesabatında əks olunan "ASAN xidmət indeksi" üzrə nəticələrlə uyğunsuzluq təşkil etdikdə əsas kimi yalnız öz mənbəmiz götürülüb.

**Mərkəzi icra orqanlarının informasiya açıqlığı üzrə Monitorinqində istifadə olunan parametrlər və qiymətləndirmə meyarları (Cədvəl-1)**

| № | → Qiymətləndirmə<br>↓ Parametrlər | Kəmiyyət Həc | Dolğunluq | Aktuallıq | Giriş | İnformasiya açıqlığı |
|---|---|---|---|---|---|---|
| **(haqqında) Dövlət qurumu ilə bağlı informasiya.1** | | | | | | |
| .1.1 | Qurumun tarixi | | | | | 100 |
| .1.2 | Rəhbərləri haqqında məlumatlar və kollegiya | | | | | 95 |
| .1.3 | Dövlət qurumunun fəaliyyətini təmin edən qanunverici baza Əsasnamə və təlimatlar | | | | | 95- |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **Ziyarətçilərin dövlət qurumu ilə əlaqə saxlaması üçün.2 imkanlar** | | | | | | |
| .2.1 | Dövlət qurumunun yerləşdiyi ünvan | | | | | 100 |
| .2.2 | ayrı xidmət və-həm də ayrı ,Həm ümumi xarakterli alt bölümlərin telefon və faks nömrələri | | | | | 70- |
| .2.3 | poçt ünvanları-Mümkün olan bütün e | | | | | 70- |
| .2.4 | Dövlət qurumunun ünvanının marşrut və sxemi | | | | | 100+ |
| .2.5 | Dövlət qurumuna getmək üçün müxtəlif istiqamətlərdən gələn ictimai nəqliyyat | | | | | 20+ |
| **Dövlət qurumunun strukturu.3** | | | | | | |
| .3.1 | .Dövlət qurumunun strukturunun ümumi sxemi | | | | | 95 |
| .3.2 | Dövlət qurumunun alt bölmələri və regional | | | | | 80 |
| .3.3 | Struktur bölmələrinin rəhbərləri və onlarla əlaqə saxlamaq üçün imkanlar | | | | | 80 |
| .3.4 | ünvanları (tam) Struktur bölmələrinin dəqiq | | | | | 80+ |
| .3.5 | Struktur bölmələrinin səlahiyyət çərçivələri | | | | | 10+ |
| 3.6 | Qurumun tabeliyindəki informasiya sistemləri | | | | | 95+ |
| **Əks əlaqə .Rəhbər və rəhbər işçilər .4** | | | | | | |
| .4.1 | inin(lər)Əsas rəhbərin və onun müavin | | | | | 90+ |
| .4.2 | Bütün mümkün struktur bölmələrinin rəhbərləri haqqında bioqrafik bilgilər | | | | | 70 |
| .4.3 | Dövlət qurumunun rəhbəri ilə əks əlaqə imkanları | | | | | 40- |
| .4.4 | ayrı struktur bölmələrinin rəhbərləri ilə əks-Ayrı əlaqə imkanları | | | | | 70+ |
| .4.5 | Dövlət qurumu ilə əks əlaqə üçün ümumi imkan | | | | | 100 |
| **Dövlət qurumunun cari fəaliyyəti haqqında .5** | | | | | | |
| .5.1 | Mətbuat üçün açıqlamalar və onların tezliyi | | | | | 100 |
| .5.2 | Dövlət qurumuna aid olan informasiya | | | | | 100 |
| .5.3 | Dövlət qurumuna aid olan hər cür başqa cari | | | | | 100 |
| .5.4 | Qurumdaxili əmr və qərarlar | | | | | 97 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| .5.5 | qəbul və qüvvəyə minmə) Bu cür aktların reyestri (tarixi də daxil olmaqla | | | | | 95+ |
| .5.6 | Dövlət qurumunun həyata keçirdiyi proqram və layihələrlə bağlı bölmə və yetərli məlumatlar | | | | | 95 |
| **Ümumi dövlət büdcəsinin quruma aid hissəsi .6 və onun icrası (ayrıntıları ilə)** | | | | | | |
| .6.1 | Qurumun büdcəsi və onun icrası haqqında məlumat | | | | | 10+ |
| .6.2 | Büdcədənkənar daxilolmalar və onların istiqamətləri barədə informasiya | | | | | 10+ |
| **Dövlət qurumu tərəfindən təklif edilən xidmətlər.7 haqqında informasiya** | | | | | | |
| .7.1 | Dövlət qurumunun təklif etməli olduğu mütləq | | | | | 80 |
| .7.2 | Dövlət qurumu tərəfindən təklif edilən əlavə | | | | | 80 |
| .7.3 | .Elektron formada təklif olunan xidmətlər (sayı ) Xidmətlərin statistikası | | | | | 98 |
| .7.4 | Onlayn müraciət imkanı | | | | | 100+ |
| .7.5 | Qaynar xətt | | | | | 75+ |
| .7.6 | Xidmətlərdən istifadə qaydaları | | | | | 10- |
| 7.7 | Çağrı Mərkəzi | | | | | 70 |
| **İşə qəbul qaydaları və boş iş yerləri haqqında bilgi.8** | | | | | | |
| .8.1 | Dövlət qurumu və onun struktur bölmələrinə işə qəbulun hüquqi bazası haqqında bilgi | | | | | 70 |
| .8.2 | İşə qəbulun norma və qaydaları | | | | | 30- |
| .8.3 | İşə qəbulla bağlı komissiyalar haqqında bilgi | | | | | 0- |
| .8.4 | Dövlət qurumu və onun struktur bölmələrindəki mövcud boş iş yerləri haqqında elanlar | | | | | 30- |
| .8.5 | Boş iş yerləri haqqında elanların arxivi | | | | | 20 |
| **Sahə işçilərinin əmək haqları.9** | | | | | | |
| .9.1 | onun müavinləri və struktur bölmələri ,Rəhbər rəhbər işçilərinin mövcud tarif stavkası | | | | | 0 |
| **Vətəndaşların qəbul şərtləri və qəbul günləri.10** | | | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 10.1. | Vəzifəli şəxslər tərəfindən vətəndaşların qəbul norma və qaydaları barədə ümumi bilgi | | | | | 44- |
| 10.2 | Dövlət qurumunda vətəndaşların qəbul qaydaları | | | | | 50- |
| 10.3. | ayrı vəzifəli şəxsləri-Dövlət qurumunun ayrı .tərəfindən vətəndaşların qəbul günləri və saatları (video qəbul və s) Digər qəbul formaları | | | | | 95 |
| 10.4 | Dövlət qulluqçusunun etika qaydaları haqqında bilgi | | | | | 90- |
| **Tender və yarışmaların keçirilməsi ilə bağlı bütün.11 mümkün qayda və elanlar** | | | | | | |
| 11.1. | hərraclar və ,Dövlət qurumu tərəfindən tenderlər yarışmaların keçirilmə qaydaları | | | | | 20- |
| 11.2. | hərracların keçirilməsi ilə bağlı elanlar ,Tenderlərin və nəticələri | | | | | 75 |
| 11.3 | Tender və yarışmaların nəticələri | | | | | 35- |
| 11.4 | Elanların arxivi | | | | | 25- |
| 11.5. | Tender və yarışmaların nəticələri ilə bağlı mübahisələrin həlli qaydaları | | | | | 25 |
| **yaratma(qanun) -Dövlət qurumunun norma.12** | | | | | | |
| 12.1 | yaratma(qanun) -Dövlət qurumunun cari norma | | | | | 80+ |
| 12.2 | tam) Bütün mümkün normativ aktların layihələri | | | | | 80+ |
| 12.3. | Bu cür layihələrin müzakirəsində vətəndaşların iştirak şərtləri | | | | | 0 |
| 12.4. | yaratma(qanun) -Dövlət qurumunun norma fəaliyyəti ilə bağlı arxiv | | | | | 80+ |
| **Yuxarıda qeyd edilən informasiyalara giriş üçün.13 texniki imkanlar** | | | | | | |
| 13.1. | Dövlət qurumunun İnternet resurslarının mövcud qaydalara uyğunluğu | | | | | 95- |
| 13.2. | Abunə imkanları və əks əlaqə üçün onlayn formaların mövcudluğu | | | | | 100 |
| 13.3 | İstifadə rahatlığı | | | | | 100 |
| 13.4 | Domen rahatlığı | | | | | 100 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 13.5 | Sayt daxilində axtarış | | | | | 90+ |
| 13.6 | Sosial mediadan istifadə imkanları və onların (aktivliyi) yenilənməsi | | | | | 95- |
| | | | | | | 44.15 |

**Qeyd: Cədvəldəki - işarəsi azalmanı, + işarəsi artımı, heç bir işarəsi olmayan isə öncəki dövrlə sabit qaldığını göstərir.**

**Mərkəzi icra hakimiyyətləri orqanları və tabe qurumlar (Sayı 151)**
**(Reytinq Cədvəli -2)**

***Mərkəzi icra hakimiyyətləri orqanlarının rəsmi saytlarının Monitorinqi zamanı ümumilikdə 151 dövlət qurumunun 59 meyar üzrə 896.800 informasiyasından 395.900 informasiya və xidmət blokuna giriş edilib. Açıq məlumatlar təqribən 44.15%-dir.*** 500.900 informasiya bloku üzrə 55.85% məlumatlar çatımlı deyil.

Reytinq Cədvəlindən (Cədvəl-1) göründüyü kimi Mərkəzi icra hakimiyyəti orqanlarının ən yüksək informasiya açıqlığı göstəricisi 66.57%-lə Komitələrə (Cədvəl-5) məxsusdur. Ötən il birinci yerdə Nazirliklər, ikinci yerdə isə Komitələr idi.

Müvafiq olaraq digər reytinqlər aşağıdakı kimi sıralanır.

Nazirliklər 63.59%-lə ikinci, Azərbaycan Respublikası Prezidentinin, Milli Məclisin, Konstitusiya Məhkəməsinin, Ali Məhkəmənin, Baş Prokurorluğun, Nazirlər Kabinetinin, Mərkəzi Bankın, Mərkəzi Seçki Komissiyasının, Məhkəmə-Hüquq Şurasının, İnsan Hüquqları üzrə Müvəkkilin, Hesablama Palatasının, Auditorlar Palatasının, Milli Elmlər Akademiyasının, Audiovizual Şuranın saytlarının da daxil olduğu Dövlət qurumlarının (Cədvəl-3) saytı 51.96% -lə üçüncü yerdədir.

Qapalı və Açıq Səhmdar Cəmiyyətlərin (QSC və ASC) orta açıqlıq göstəricisi (Cədvəl-10) 43.91%-lə dördüncü, Agentlik və fondlar üzrə orta açıqlıq göstəricisi (Cədvəl-7) 43.59%-lə beşinci, Fondlar, İdarələr, Mərkəzlər, MMC (Cədvəl-8) yer aldığı qurumların saytları 40.11%-lə altıncı, Şirkətlər, Komissiyalar üzrə orta açıqlıq göstəricisi (Cədvəl-9) 33.96%-lə yeddinci, Dövlət Xidmətləri (Cədvəl-6) üzrə açıqlıq reytinqı 33.28%-lə səkkizinci-sonuncu yerdədir. 2021-ci ildə sonuncu yeri Şirkətlər, Komissiyalar tuturdu. Paradoksal olsa da vətəndaşlara ən çox açıq olması zəruri olan Xidmətlər ən sonuncu yerdə qərarlaşıb.

Mərkəzi icra orqanlarının informasiya açıqlığı baxımından 89.83%-lə İqtisadiyyat Nazirliyi yanında Vergilər xidməti www.taxes.gov.az , 85.59%-lə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi https://smb.gov.az, 84.27%-lə Dövlət Gömrük Komitəsi www.customs.gov.az, 82.62%-lə Maliyyə Nazirliyi www.maliyye.gov.az, 81.18%-lə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi www.mlspp.gov.az saytları ilk beşlikdədir.

İqtisadiyyat Nazirliyi, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti, İqtisadiyyat Nazirliyi yanında Vergilər Xidməti, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilk beşlikdə idi.
Müvafiq olaraq sonuncu beşlikdə qərar tutan dövlət qurumlarının saytlarında axtarılan məlumatları əldə etmək mümkün olmayıb. Bunlar "İnformasiya-Kommunikasiya Texnologiyalarının Tətbiqi və Tədrisi Mərkəzi" MMC, Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzi, Dövlət Sosial Müdafiə Fondu, İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu, Prezidentin Təhlükəsizlik Xidmətinin saytlarıdır.
Xüsusilə qeyd etməliyik ki, monitorinqə cəlb edilən 151 Mərkəzi icra hakimiyyətləri orqanlarının saytları arasında yalnız 64 sayt (42.10%) 50%-dən çox nəticə göstərib. Ötən il bu göstərici 40 sayt (25.9%) təşkil etmişdi. İlk onluqda dayanan saytların ümumi faizi keçən illə müqayisədə aşağı düşsə də, ümumi nisbətdə 16% artım baş verib. 57.90% -in nəticəsi 50%-dən az olub. 23 saytın (15.13%) informasiya açıqlığı isə olduqca aşağıdır. Nəticəsi 0-3% olan saytların sayı 9 (6.57%)-dur.

| № | **(2-Cədvəl) Mərkəzi icra orqanları** | **Rəsmi saytı** | **2021 %** | **2023 %** |
|---|---|---|---|---|
| 1 | **Vergilər xidməti** | www.taxes.gov.az | **93** | **89.83** |
| 2 | **Kiçik və Orta Biznesin İnkişafı** | https://smb.gov.az | **67.7** | **85.59** |
| 3 | **Dövlət Gömrük Komitəsi** | az.gov.customs.www | **86.4** | **84.27** |
| 4 | **Maliyyə Nazirliyi** | az.gov.maliyye.www | **69.5** | **82.62** |
| 5 | **Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi** | az.gov.mlspp.www | **89.8** | **81.18** |
| 6 | **Dövlət Turizm Agentliyi** | www.tourism.gov.az | **49.1** | **79.32** |
| 7 | **Ekologiya və Təbii Sərvətlər Nazirliyi** | az.gov.eco.www | **64.4** | **79.66** |
| 8 | **Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti** | az.gov.consumer.www | **93.1** | **77.96** |
| 9 | **Dövlət Statistika Komitəsi** | org.azstat.www | **84** | **76.94** |
| 10 | **Dövlət Neft Şirkəti** | az.socar.www | **74.5** | **76.94** |
| 11 | Baş Prokurorluq | az.gov.genprosecutor.www | **86.4** | **76.27** |
| 12 | Dövlət Məşğulluq Agentliyi | https://dma.gov.az | **59.3** | **76.27** |
| 13 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | az.gov.mincom.www | **64.4** | **74.57** |
| 14 | Dövlət İmtahan Mərkəzi | az.gov.dim.www | **59.3** | **74.57** |

| | | | | |
|---|---|---|---|---|
| 15 | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | az.gov.scwra.www | 28.8 | **74.15** |
| 16 | İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti | az.gov.emdk.www | 93 | **72.45** |
| 17 | Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi DOST | http://dost.gov.az | 69.4 | **72.37** |
| 18 | İcbari Tibbi Sığorta üzrə Dövlət | https://its.gov.az | 76.2 | **71.18** |
| 19 | Daxili İşlər Nazirliyi | az.gov.din.www | 69.6 | **70.76** |
| 20 | Ədliyyə Nazirliyi | az.gov.justice.www | 59.3 | **69.91** |
| 21 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | az.gov.refugee.www | 42.3 | **68.64** |
| 22 | Energetika Nazirliyi | az.gov.mie.www | 62.7 | **67.79** |
| 23 | QSC ”Azərbaycan Dəmir Yolları“ | https://corp.ady.az | 52.5 | **67.79** |
| 24 | Kənd Təsərrüfatı Nazirliyi | az.gov.agro.www | 59.3 | **67.37** |
| 25 | Azərsu ASC | az.azersu.www | 49.1 | **66.10** |
| 26 | Təhsil Nazirliyi | az.gov.edu.www | 66.1 | **66.10** |
| 27 | İqtisadiyyat Nazirliyi | az.gov.economy.www | 93.2 | **65.25** |
| 28 | ASC ”Azərbaycan Beynəlxalq Bankı“ | /az.bank-abb//:https | 62.7 | **64.40** |
| 29 | AR Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə (ASAN XİDMƏT) Dövlət Agentliyi | az.gov.asan.www<br>az.gov.vxsida.www | 67.7 | **63.81** |
| 30 | Diasporla İş üzrə Dövlət Komitəsi | az.gov.diaspora.www | 42.3 | **63.13** |
| 31 | Əqli Mülkiyyət Agentliyi | https://www.copat.gov.az | 61 | **62.71** |
| 32 | Hesablama Palatası | az.gov.ach.www | 38.9 | **61.86** |
| 33 | Mədəniyyət Nazirliyi | az.gov.mct.www | 49.1 | **61.01** |
| 34 | Dövlət Neft Fondu | https://www.oilfund.az | 61 | **61.01** |
| 35 | İstehlak Mallarının Ekspertizası Mərkəzi MMC | https://ekspertiza.az | 8.4 | **61.01** |
| 36 | Sosial Ekspertiza və-Dövlət Tibbi Reabilitasiya Agentliyi | https://www.sosial.gov.az/TSEKstruktura | 5 | **59.32** |

| | | | | |
|---|---|---|---|---|
| 37 | Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC | az.gov.mst.www | 49.1 | **59.32** |
| 38 | Mərkəzi Bank | www.cbar.az | 79.6 | **58.89** |
| 39 | İpoteka və Kredit Zəmanət Fondu | az.gov.mcgf.www | 54.2 | **57.62** |
| 40 | Elmin İnkişafı Fondu | www.elmfondu.gov.az https://www.sdf.gov.az | 33.8 | **57.20** |
| 41 | Qadın və Uşaq Problemləri üzrə ,Ailə Dövlət Komitəsi | az.gov.scfwca.www | 32.2 | **56.13** |
| 42 | Gənclər Fondu | https://youthfoundation.az/ | 33.8 | **55.93** |
| 43 | AZSTAN) ”Standartlaşdırma İnstitutuD | http://www.azstand.gov.az | .152 | **55.93** |
| 44 | Auditorlar Palatası | az.gov.audit.www | 49.1 | **55.93** |
| 45 | Dövlət Miqrasiya Xidməti | az.gov.migration.www | 33.8 | **55.67** |
| 46 | Gənclər və İdman Nazirliyi | az.gov.mys.www | 35.5 | **55.08** |
| 47 | Milli Məclis | www.meclis.gov.az | 52.5 | **55.08** |
| 48 | MMC "Azərpoçt" | https://www.azerpost.az | 35.5 | **55.08** |
| 49 | Dövlət Reklam Agentliyi | az/az.gov.adra//:https | 42.3 | **54.83** |
| 50 | Qida Təhlükəsizliyi Agentliyi | www.afsa.gov.az | 50.8 | **54.74** |
| 51 | Bakı Nəqliyyat Agentliyi | https://www.bna.az | 44 | **54.23** |
| 52 | İqtisadi Zonaların İnkişaf Agentliyi | http://www.economiczones.gov.az/ | 30.5 | **54.23** |
| 53 | İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi | az/az.gov.ereforms//:https | 38.9 | **54.23** |
| 54 | Milli Arxiv İdarəsi | www.milliarxiv.gov.az | 71.1 | **54.23** |
| 55 | Fövqəladə Hallar Nazirliyi | az.gov.fhn.www | 69.4 | **53.38** |
| 56 | QSC "Bakı Metropoliteni" | az.gov.metro.www | 52.5 | **52.54** |
| 57 | Memarlıq-Dövlət Tarix "İçərişəhər" Qoruğu İdarəsi | az/az.gov.icherisheher//:https | 22 | **52.54** |
| 58 | Dövlət Radiotezliklər İdarəsi | https://dri.az | 42.3 | **52.54** |
| 59 | Konstitusiya Məhkəməsi | www.constcourt.gov.az | 47.4 | **51.69** |

| | | | | |
|---|---|---|---|---|
| 60 | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | www.seferberlik.gov.az | 35.5 | **51.49** |
| 61 | Azərbaycan Respublikası Prezidentinin | www.president.gov.az | 32.2 | **50.84** |
| 62 | Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiya | az.gov.antikorrupsiya.www | .305 | **50.84** |
| 63 | MMC "AzInTelecom" | https://azintelecom.az | 52.5 | **50** |
| 64 | Mərkəzi Seçki Komissiyası | az.gov.msk.www | 55.9 | **50** |
| 65 | Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi | http://www.meda.gov.az/ | 5 | **49.66** |
| 66 | Aqrarkredit QSC | az.aqrarkredit.www | 25.4 | **49.15** |
| 67 | Ali Məhkəmə | www.supremecourt.gov.az | 52.5 | **49.15** |
| 68 | İnsan Hüquqları üzrə Müvəkkili | www.ombudsman.gov.az | 28.8 | **49.15** |
| 69 | Müdafiə Nazirliyi | az.gov.mod.www | 30.5 | **49.15** |
| 70 | Xarici İşlər Nazirliyi | az.gov.mfa.www | 44 | **48.30** |
| 71 | Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu | https://azpromo.az | 0 | **48.30** |
| 72 | Sahibkarlığa Kömək Milli Fondu | az.gov.edf.www | 67.7 | **47.71** |
| 73 | Satınalma www.etender.gov.az | https://etender.gov.az | .135 | **47.45** |
| 74 | AzərEnerji ASC | az.gov.azerenerji.www | 22 | **47.03** |
| 75 | Səhiyyə Nazirliyi | az.gov.sehiyye.www | 44 | **47.03** |
| 76 | Dövlət Dəniz və Liman Agentliyi | az.gov.ardda.www | .305 | **47.03** |
| 77 | Audiovizual Şura | /az.gov.acra//:https | 35.5 | **47.03** |
| 78 | MMC "Aztelekom" | https://www.aztelekom.az | 42.3 | **46.61** |
| 79 | Nazirlər Kabineti | www.cabmin.gov.az https://nk.gov.az | 38.9 | **46.61** |
| 80 | İnnovasiya və Rəqəmsal İnkişaf“ publik hüquqi şəxs ”Agentliyi | https://mincom.gov.az/ az/ view/organization/35/ | 3.3 | **45.76** |
| 81 | Dövlət İdarəçilik Akademiyası | az.edu.dia//:https/ | .338 | **45.76** |
| 82 | Medianın İnkişafı Agentliyi | www.kivdf.gov.az https://media.gov.az | 18.6 | **45.16** |

| | | | | |
|---|---|---|---|---|
| 83 | Azərxalça ASC | az.azerxalca.www | 20.3 | **44.32** |
| 84 | ASC "AzərTürk Bank" | /az.atb//:https | 55.9 | **44.06** |
| 85 | Strateji Obyektlərin Mühafizəsi Dövlət .Agentliyi | az.gov.dmx.www | 0 | **44.06** |
| 86 | Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik ANAMA | www.anama.gov.az | 0 | **44.06** |
| 87 | Dövlət Sığorta Kommersiya Şirkəti | www.azersigortaaz. | .152 | **44.06** |
| 88 | Azərbaycan Metrologiya İnstitutu"" | http://metrology.az | 22 | **43.64** |
| 89 | ”Bakı Beynəlxalq Dəniz Ticarət Limanı“ QSC | https://portofbaku.com/ | 49.1 | **43.08** |
| 90 | Dövlət Şəhərsalma və Arxitektura | az.gov.arxkom.www | 52.5 | **42.74** |
| 91 | Azərbaycan Yerüstü Nəqliyyat“ publik hüquqi şəxs ”Agentliyi | https://mincom.gov.az/ az/ view/organization/36/ | 3.3 | **42.45** |
| 92 | Azərişıq ASC | https://www.azerishiq.az | 44 | **42.37** |
| 93 | Prezident yanında Ali Attestasiya Komissiyası | www.aak.gov.az | .84 | **42.37** |
| 94 | Milli Elmlər Akademiyası | www.elm.gov.az https://science.gov.az | 25.4 | **42.37** |
| 95 | Müdafiə Sənayesi Nazirliyi | az.gov.mdi.www | 25.4 | **41.94** |
| 96 | QSC ”AzerGold“ | www.azergold.az | 62.7 | **41.15** |
| 97 | ASC ”Təmiz Şəhər“ | https://tamizshahar.az | 0 | **40.33** |
| 98 | MMC "Bakı Telefon Rabitəsi" | https://www.baktelecom.az | 18.6 | **39.83** |
| 99 | Akkreditasiya Mərkəzi | h t t p s : / / | 11.8 | **39.83** |
| 100 | Azəristiliktəchizat ASC | az.gov.azeristilik.www | 32.2 | **38.98** |
| 101 | ASC ”Azərlotereya“ | https://azerlotereya.com | 15 | **38.47** |
| 102 | Avtomobil Yolları Dövlət Agentliyi | az.gov.aayda.www | 38.9 | **38.30** |
| 103 | MMC "Sumqayıt Kimya Sənaye Parkı" | https://scip.az | 30.5 | **37.71** |
| 104 | Dənizkənarı Bulvar İdarəsi | /az.gov.bulvar//:http | 30.5 | **37.71** |
| 105 | Baş Dövlət Yol Polisi İdarəsi | az.gov.dyp.www | 22 | **37.71** |

| | | | | |
|---|---|---|---|---|
| 106 | Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti | www.dmx.gov.az | 0 | **37.40** |
| 107 | Azərbaycan Hava Yolları QSC | az.azal.www | 33.8 | **37.28** |
| 108 | Bioloji Müxtəlifliyin Qorunması | https://nationalparks.az/ | 18.6 | **36.11** |
| 109 | İstehsalat Birliy "Azəriqaz"i | a/az.azeriqaz//:httpz | .355 | **34.74** |
| 110 | Dövlət Sərhəd Xidməti | az.gov.dsx.www | 30.5 | **34.50** |
| 111 | Mənzil İnşaatı Dövlət Agentliyi | /az/az.gov.mida//:https | 20.3 | **33.15** |
| 112 | Elektron Təhlükəsizlik Xidməti | https://cert.az | 22 | **33.09** |
| 113 | Televiziya Yayımı və Peyk-Radio“ İstehsalat Birliyi ”Rabitəsi | https://teleradio.az | 33.8 | **32.62** |
| 114 | Hüquq Şurası-Məhkəmə | www.jlc.gov.az | 38.9 | **32.20** |
| 115 | “Azərbaycan İnvestisiya Şirkəti” ASC | https://www.aic.az | 15 | **30.88** |
| 116 | Dövlət Təhlükəszilik Xidməti | az.gov.mns.www | 25.4 | **30.79** |
| 117 | Azərbaycan Televiziya və Radio“ QSC ”Verilişləri | az.aztv.www | 35.5 | **30.50** |
| 118 | Dövlət Mülki Aviasiya Agentliyi | https://mincom.gov.az/ az/ view/organization/23/ | 18,6 | **30.50** |
| 119 | “Ərzaq məhsullarının tədarükü və təchizatı” ASC | //:az http/az.gov.att//:http /az.gov.tedaruk | 25.4 | **29.57** |
| 120 | Tarif Şurası | www.tariffcouncil.gov.az http://tariff.gov.az | .322 | **28.89** |
| 121 | lərə Dövlət Dəstəyi Agentliyi-QHT | /az.ngogrant//:https | 0 | **27.37** |
| 122 | Azərbaycan Respublikasının Kosmik“ ”(Azərkosmos) Agentliyi | ?/az.azercosmos//:https az=lang | 62.7 | **27.11** |
| 123 | "Hərbiləşdirilmiş Mühafizə İdarəsi" MMC | https://mincom.gov.az/ az/ view/organization/13/ | 5 | **27.11** |
| 124 | Lisenziyalar və İcazələr Portalı | https://lisenziya.gov.az | .84 | **25.42** |
| 125 | Bakı Biznes Mərkəzi | http://bbm-az.com | 25.4 | **22.88** |
| 126 | Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi | www.ttnda.fhn.gov.az | 10.1 | **22.49** |

| | | | | |
|---|---|---|---|---|
| 127 | Azərbaycan Dövlət İnformasiya (AZƏRTAC) Agentliyi | https://azertag.az/ | 25.4 | **21.10** |
| 128 | Sənayedə İşlərin Təhlükəsiz Görülməsi Mədən Nəzarəti Dövlət-və Dağ | www.dag-meden.fhn.gov.az | 10.1 | **20.72** |
| 129 | Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyi | www.nuve.fhn.gov.az | 8.4 | **20.66** |
| 130 | Dövlət Əmək Müfəttişliyi Xidməti | www.sosial.gov.az/ D%C6%8FMXstruktura | 6.7 | **19.49** |
| 131 | Dördüncü Sənaye İnqilabının Təhlili və Kommunikasiya Mərkəzi | www.economy.gov.az | 0 | **19.15** |
| 132 | girov götürülmüş ,Əsir və itkin düşmüş vətəndaşlarla əlaqədar Dövlət | www.human.gov.az | .135 | **18.64** |
| 133 | Tibb Xidməti FHN | www.tibb.fhn.gov.az | 8.4 | **15.86** |
| 134 | Dövlət Yanğından Mühafizə Xidməti | www.dymx.fhn.gov.az | 10.1 | **14.87** |
| 135 | Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti | khg.fhn.gov.az | 10.1 | **14.87** |
| 136 | Xüsusi Riskli Xilasetmə Xidməti | www.xrxx.fhn.gov.az | 10.1 | **14.87** |
| 137 | Dövlət Yanğın Nəzarəti Xidməti | www.dynx.fhn.gov.az | 8.4 | **14.87** |
| 138 | Xəzər Hövzə Qəza-xilasetmə Xidməti | www.xhqx.fhn.gov.az | 10.1 | **14.87** |
| 139 | Azərbaycan Yaşıllaşdırma və Landşaft ASC "Quruluşu | http://www.ayl.eco.gov.az | 10.1 | **11.01** |
| 140 | Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya | www.sosial.gov.az/ observatoriyarehber | 5 | **11.01** |
| 141 | Fövqəladə Hallar Nazirliyinin | a.gov.fhn.akademiya.wwwz | .67 | **9.32** |
| 142 | Azərbaycanda Proqram İdarəetmə PİQ) Qurumu) | http://pao.az/ | 0 | **8.47** |
| 143 | Milli Hidrometeorologiya Xidməti | https://meteo.az/ | 11.8 | **3.38** |
| 144 | Sosial Xidmətlər Agentliyi | https://www.sosial.gov.az/ | 8.4 | **3.38** |
| 145 | Dövlət Mülki Aviasiya Agentliyi | az.gov.caa.www | 18.6 | **0** |
| 146 | İnformasiya Kommunikasiya" "Texnologiyaları Agentliyi | https://mincom.gov.az/ az/ view/organization/34 | 0 | **0** |

| | | | | |
|---|---|---|---|---|
| 147 | MMC ”Bakı Taksi Xidməti“ | https://mincom.gov.az/ az/ view/organization/25/ | **5** | **0** |
| 148 | Kommunikasiya-İnformasiya“ Texnologiyalarının Tətbiqi və Tədrisi MMC ”Mərkəzi | https://mincom.gov.az/ az/ view/organization/18/ | **5** | **0** |
| 149 | Böhran Vəziyyətlərində İdarəetmə | az.gov.fhn.bvim.www | **10.1** | **0** |
| 150 | Dövlət Sosial Müdafiə Fondu | https://www.sosial.gov.az/ dsmfstruktura | **8.4** | **0** |
| 151 | İqtisadi İslahatlar Elmi Tədqiqat | http://ier.az | **.254** | **0** |
| 152 | Prezidentin Təhlükəsizlik Xidməti | | **0** | **0** |
| Cəm | | | **37.3%** | **44.15** |

**Dövlət qurumları üzrə orta açıqlıq göstəricisi  (Cədvəl-4)**

***Azərbaycan Respublikası Prezidentinin saytının da daxil olduğu 14 dövlət qurumunun rəsmi saytlarının Monitorinqi zamanı 826 informasiya və xidmət blokuna giriş edilib. Təqribən 429 informasiya bloku üzrə yerləşdirilən 51.94% məlumatlara çatmaq və təhlil etmək mümkün olub. Saytlarda 397 blok üzrə 48.06% məlumatlar öz əksini tapmayıb.***




Dövlət qurumlarının rəsmi internet resurslarının informasiya açıqlığının müəyyən edilməsi üçün nəzərdə tutulan parametrlərə uyğun olaraq *Baş Prokurorluğun www.genprosecutor.gov.az rəsmi saytı əksər parametrlər üzrə yetərli və dolğun bilgi verməsi baxımından diqqət çəkir. Bu qurumun informasiya açıqlığı 76.27% -lə ilk yerdədir.* İkinci yerdə 61.86%-lə Hesablama Palatasının www.ach.gov.az  saytı, üçüncü yerdə 58.89%-lə Mərkəzi Bankın www.cbar.az saytıdır. Xatırladaq ki, keçən monitorinq dövrü də Baş Prokurorluğun və Mərkəzi Bankın saytları ilk üçlükdə qərar tutmuşdu.

Ümumi götürdükdə Dövlət qurumlarının Saytlarının istifadəsi rahatdır və sahələri üzrə xeyli maraqlı bilgilər təqdim edir. Bu dövlət qurumlarının İnternet resurslarının mövcud qaydalara uyğunluğu, abunə imkanları və əks əlaqə üçün onlayn formaların mövcudluğu, istifadə rahatlığı, domen rahatlığı, sayt daxilində axtarış sistemi yüksək səviyyədə olsa da bəzi parametrlər üzrə yetərli bilgilər təqdim edilmir.

Mərkəzi Bank istisna olmaqla bu qurumların heç biri Dövlət Xidmətləri Portalında www.dxr.az e-xidmətlərin məlumat bazasına inteqrasiya olunmayıb. Yalnız Portalda Mərkəzi Bankın 77 (ötən il 68 idi) elektron xidmətlərini tapmaq mümkündür.

İnformasiya açıqlığı baxımından müəyyən etdiyimiz kriteriyalara əsasən ən aşağı göstərici 32,20%-lə Məhkəmə-Hüquq Şurasına http://www.jlc.gov.az aiddir. 47.03%-lə Audiovizual Şuraya https://acra.gov.az/ aiddir. Keçən il ən aşağı göstərici 25.4%-lə Milli Elmlər Akademiyasının www.elm.gov.az saytına aid idi. Həmçinin, Nazirlər Kabinetinin www.cabmin.gov.az , https://nk.gov.az  saytı ilə yanaşı yenə də Milli Elmlər Akademiyası sonuncu üçlükdədir.

| | **Dövlət qurumları üzrə orta açıqlıq göstəricisi  (Cədvəl-4)** | | **2021** | **2023** |
|---|---|---|---|---|

| | | | | |
|---|---|---|---|---|
| 1 | Baş Prokurorluq | az.gov.genprosecutor.www | 86.4 | 76.27 |
| 2 | Hesablama Palatası | az.gov.ach.www | 38.9 | 61.86 |
| 3 | Mərkəzi Bank | www.cbar.az | 79.6 | 58.89 |
| 4 | Auditorlar Palatası | az.gov.audit.www | 49.1 | 55.93 |
| 5 | Milli Məclis | www.meclis.gov.az | 52.5 | 55.08 |
| 6 | Konstitusiya Məhkəməsi | www.constcourt.gov.az | 47.4 | 51.69 |
| 7 | Azərbaycan Respublikası Prezidentinin saytı | www.president.gov.az | 32.2 | 50.84 |
| 8 | Mərkəzi Seçki Komissiyası | az.gov.msk.www | 55.9 | 50 |
| 9 | Ali Məhkəmə | www.supremecourt.gov.az | 52.5 | 49.15 |
| 10 | İnsan Hüquqları üzrə Müvəkkili | www.ombudsman.gov.az | 28.8 | 49.15 |
| 11 | Audiovizual Şura | www.acra.gov.az | 35.5 | 47.03 |
| 12 | Nazirlər Kabineti | www.cabmin.gov.az https://nk.gov.az | 38.9 | 46.61 |
| 13 | Milli Elmlər Akademiyası | www.elm.gov.az https://science.gov.az | 25.4 | 42.37 |
| 14 | Məhkəmə-Hüquq Şurası | www.jlc.gov.az | 38.9 | 32.20 |
| Cəmi | | | 47.3% | 51.96 % |

**Nazirliklər üzrə orta açıqlıq göstəricisi (Cədvəl-5)**

***Nazirliklərin rəsmi saytlarının Monitorinqi zamanı 1003 informasiya və xidmət blokuna giriş edilib. Təqribən 637 informasiya bloku üzrə yerləşdirilən 63.51% məlumatlar təhlil olunub. 366 informasiya bloku üzrə 36.49% məlumatlar saytda yerləşdirilməyib.***




Mərkəzi icra orqanlarının rəsmi internet resurslarının informasiya açıqlığının müəyyən edilməsi üçün nəzərdə tutulan parametrlərə uyğun olaraq *82.62%-lə Maliyyə Nazirliyinin www.maliyye.gov.az saytı 1-ci,* 81.18%-lə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin www.mlspp.gov.az saytı 2-ci, 79.66%-lə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin www.eco.gov.az saytı 3-cü yerdədir. Bu qurumlarla yanaşı, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin, Daxili İşlər Nazirliyinin, Ədliyyə Nazirliyinin rəsmi saytları da əksər parametrlər üzrə yetərli və dolğun bilgi verməsi baxımından diqqət çəkir.

Nazirliklərin saytlarının istifadəsi rahatdır, olduqca bəlli sahələr üzrə dolğun bilgi təqdim edir və informasiya açıqlığı indeksinə görə əksəriyyəti 55%-dən çox açıqlığa malikdir. Təəssüf ki, ümumi yanaşmada hər 3 məlumatdan birinin hələ də internetdəki səhifəyə yüklənmədiyi müşahidə edilir.

Keçən monitorinq zamanı 4-cü pillədə qərar tutan Maliyyə Nazirliyinin saytı 1-ci, 1-ci yerdə qərar tutan İqtisadiyyat Nazirliyinin www.economy.gov.az rəsmi saytı isə bu il 65.25%-lə 10-cu yerdədir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi öz reytinqini sabit saxlayır. Son üç ilin monitorinqin nəticəsində 1 və 2-ci yerləri bölüşür. Eyni zamanda hazırda əksər parametrlər üzrə və qiymətləndirici meyarlar baxımından ən yaxşı sayt hesab olunur.

Dövlət Xidmətləri Portalında www.dxr.az e-xidmətlərin məlumat bazasında Nazirliklərin 739 (ötən il 675) xidməti təqdim olunub. 2021-ci ildə 17 nazirliyin 16-sı www.dxr.az e-xidmətinə inteqrasiya olunmuşdu. Bu il artıq bütün nazirliklər portala inteqrasiya olunub. Müvafiq olaraq ən çox İqtisadiyyat Nazirliyinin 217 (ötən il 207), Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 108 (ötən il 95) elektron xidməti var. Ümumiyyətlə digər nazirliklərlə müqayisədə bu iki nazirliyin saytları faydalılıq, sahə üzrə dolğunluq baxımından da olduqca yüksək dəyərləndirilir.

Nazirliklərin saytlarında e-xidmətlər bölümü müsbət təəssürat yaradır. İnformasiyalara giriş üçün texniki imkanlar qənaətbəxşdir. Dövlət qurumunun İnternet resurslarının mövcud qaydalara

uyğunluğu, abunə imkanları və əks əlaqə üçün onlayn formaların mövcudluğu, istifadə rahatlığı, domen rahatlığı, sayt daxilində axtarış sistemi yaxşı səviyyədədir. Bəzi parametrlər üzrə yetərli məlumatlar olmasa da, əsasən lazımi bilgilər təqdim edilir.

Nazirliklər arasında Müdafiə Sənayesi, Səhiyyə, Xarici İşlər, Müdafiə, Gənclər və İdman Nazirliklərinin saytları informasiya açıqlığı baxımından daha zəif qiymətləndirilib. Müdafiə və Müdafiə Sənayesi Nazirliklərinin informasiya açıqlığı baxımından spesfikliyini nəzərə alsaq alınan nəticələr qənaətbəxş sayıla bilər. Ancaq Səhiyyə Nazirliyinin informasiya açıqlığının daha yüksək olması geniş istifadəçilər baxımından faydalı olardı.

Xatırladaq ki, Kənd Təsərrüfatı Nazirliyinin saytı vizulallığı və sahəsi üzrə məlumat zənginliyinə görə çox yaxşı saytlardan biri kimi qeyd edilə bilər. Dövlət Xidmətləri Portalında 55 (ötən il 49 idi) xidməti təqdim olunub. Təəssüf ki, qanunvericiliyin tələblərinə uyğun olaraq bir çox parametrlər üzrə informasiyaların olmaması bu Saytın reytinq cədvəlində aşağı sıralarda olması ilə nəticələnib.

Nazirliklərin ən çox (Cədvəl-14), qismən (Cədvəl-15) və az (Cədvəl-16) açıqladıqları informasiyaları ilə daha əhatəli şəkildə müvafiq cədvəllərdən tanış olmaq mümkündür.

| | **Nazirliklər üzrə orta açıqlıq göstəricisi (Cədvəl-4)** | | **2021** | **2023** |
|---|---|---|---|---|
| 1 | Maliyyə Nazirliyi | az.gov.maliyye.www | **4-69.5** | **82.62** |
| 2 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | az.gov.mlspp.www | **5-89.8 3** | **81.18** |
| 3 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | az.gov.eco.www | **3-64.4** | **79.66** |
| 4 | Rəqəmsal İnkişaf və Nəqliyyat | az.gov.mincom.www | **3-64.4** | **74.57** |
| 5 | Daxili İşlər Nazirliyi | az.gov.din.www | **4-69.6** | **70.76** |
| 6 | Ədliyyə Nazirliyi | az.gov.justice.www | **3-59.3** | **69.91** |
| 7 | Energetika Nazirliyi | az.gov.mie.www | **3-62.7** | **67.79** |
| 8 | Kənd Təsərrüfatı Nazirliyi | az.gov.agro.www | **3-59.3** | **67.37** |
| 9 | Təhsil Nazirliyi | az.gov.edu.www | **3-66.1** | **66.10** |
| 10 | İqtisadiyyat Nazirliyi | az.gov.economy.www | **5-93.2** | **65.25** |
| 11 | Mədəniyyət Nazirliyi | az.gov.mct.www | **2-49.1** | **61.01** |
| 12 | Gənclər və İdman Nazirliyi | az.gov.mys.www | **2-35.5** | **55.08** |
| 13 | Fövqəladə Hallar Nazirliyi | az.gov.fhn.www | **4-69.4** | **53.38** |

| | | | | |
|---|---|---|---|---|
| 14 | Müdafiə Nazirliyi | az.gov.mod.www | **1-30.5** | **49.15** |
| 15 | Xarici İşlər Nazirliyi | az.gov.mfa.www | **26-44** | **48.30** |
| 16 | Səhiyyə Nazirliyi | az.gov.sehiyye.www | **26-44** | **47.03** |
| 17 | Müdafiə Sənayesi Nazirliyi | az.gov.mdi.www | **1-25.4** | **41.94** |
| Cəmi | 1081.1 | | **58.6%** | **63.59** |

**Komitələr üzrə orta açıqlıq göstəricisi (Cədvəl-5)**

***Komitələrin rəsmi saytlarının Monitorinqi zamanı 413 informasiya və xidmət blokuna giriş edilib. Təqribən 275 informasiya bloku üzrə yerləşdirilən (66.59%) məlumatlar təhlil olunub***. 138 blok üzrə (33,41%) məlumat internetə yerləşdirilməyib.




Mərkəzi icra orqanlarının rəsmi internet resurslarının informasiya açıqlığının müəyyən edilməsi üçün nəzərdə tutulan parametrlərə uyğun olaraq *Dövlət Gömrük Komitəsinin [www.customs.gov.az](http://www.customs.gov.az) rəsmi saytı əksər parametrlər üzrə yetərli və dolğun bilgi verməsi baxımından diqqət çəkir. Bu qurumun informasiya açıqlığı 84.27% -lə ilk yerdədir*. İkinci yerdə 76.91% -lə Dövlət Statistika Komitəsinin [www.azstat.org](http://www.azstat.org) saytı, üçüncü yerdə 74.15%-lə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin [www.scwra.gov.az](http://www.scwra.gov.az) saytı qərarlaşıb.

Xatırladaq ki ötən monitorinq dövrü ilə müqayisədə 1 və 2-ci yerlərdə dəyişiklik olmayıb. Lakin, Gömrük Komitəsinin və Statistika Komitəsinin saytlarının faizlərində cüzi dəyişiklik olub. Gömrük Komitəsinin saytı 86.4%-dən 84.27%-ə, Statistika Komitəsinin saytı isə 84.8%-dən 74.15%-ə enib.

Keçən monitorinq dövrü sonuncu yerdə olan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin saytı 28.80%-dən 74.15%-ə yüksələrək 3-cü yerdə qərarlaşıb. Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin saytı isə 52.50%-dən 42.74%-ə enərək sonuncu yerdədir.

Ümumi götürdükdə Komitələrin Saytlarında keçən dövrlə müqayisədə təqribən 14% irəliləyiş var. İnformasiya açıqlığı 52.6%-dən 66.56%-ə yüksəlib.

Komitələrin saytlarının istifadəsi rahatdır və sahələri üzrə əsasən dolğun bilgilər təqdim edir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi istisna olmaqla Komitələrin 6-si Dövlət Xidmətləri Portalına www.dxr.az e-xidmətlərin məlumat bazasına inteqrasiya olunub. Ümumilikdə Komitələrin Portalda 37 müvafiq elektron xidmətləri təqdim olunub.

Bu dövlət qurumlarının İnternet resurslarının mövcud qaydalara uyğunluğu, abunə imkanları və əks əlaqə üçün onlayn formaların mövcudluğu, istifadə rahatlığı, domen rahatlığı, sayt daxilində axtarış sistemi yüksək səviyyədə olsa da bəzi parametrlər üzrə yetərli bilgilər təqdim edilmir.

**Komitələrin saytında 14 meyar üzrə informasiyalar 100% açıqlanır:**

*Qurumun tarixi, Rəhbərləri haqqında məlumatlar və kollegiya, Dövlət qurumunun fəaliyyətini təmin edən qanunverici baza Əsasnamə və təlimatlar, Dövlət qurumunun yerləşdiyi ünvan, Dövlət qurumu ilə əks əlaqə üçün ümumi imkan, Mətbuat üçün açıqlamalar və onların tezliyi,*

*Dövlət qurumuna aid olan informasiya, Onlayn müraciət imkanı, Dövlət qulluqçusunun etika qaydaları haqqında bilgi, Dövlət qurumunun cari norma- (qanun)yaratma fəaliyyəti, Abunə imkanları və əks əlaqə üçün onlayn formaların mövcudluğu, Domen rahatlığı, Sayt daxilində axtarış, Sosial mediadan istifadə imkanları və onların yenilənməsi (aktivliyi).*

**3 meyar üzrə informasiyalar ümumiyyətlə açıqlanmayıb:**

*Büdcədənkənar daxilolmalar və onların istiqamətləri barədə informasiya, Tender və yarışmaların nəticələri ilə bağlı mübahisələrin həlli qaydaları. Normativ aktların layihələrinin müzakirəsində vətəndaşların iştirak şərtləri saytlarda yoxdur.*

İnformasiya açıqlığı baxımından müəyyən etdiyimiz kriteriyalara əsasən ən aşağı göstərici 42.74%-lə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə www.arxkom.gov.az və 56.13%-lə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə www.scfwca.gov.az məxsusdur.

Cədvəldə keçən monitorinqin nəticələri ilə bağlı müqayisə verilib.

Komitələrin ən çox (Cədvəl-14), qismən (Cədvəl-15) və az (Cədvəl-16) açıqladıqları informasiyaları ilə daha əhatəli şəkildə müvafiq cədvəllərdən tanış olmaq mümkündür.

| № | **Komitələr üzrə orta açıqlıq göstəricisi Cədvəl 5** | | **2021** | **2023** |
|---|---|---|---|---|
| 1 | Dövlət Gömrük Komitəsi | az.gov.customs.www | **86.4%** | **84.27** |
| 2 | Dövlət Statistika Komitəsi | org.azstat.www | **84%** | **76.94** |
| 3 | Dini Qurumlarla İş üzrə Dövlət | az.gov.scwra.www | **28.8%** | **74.15** |
| 4 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | az.gov.refugee.www | **42.3%** | **68.64 %** |
| 5 | Diasporla İş üzrə Dövlət Komitəsi | az.gov.diaspora.www | **42.3%** | **63.13** |
| 6 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | az.gov.scfwca.www | **32.2%** | **56.13 %** |
| 7 | Dövlət Şəhərsalma və Arxitektura | az.gov.arxkom.www | **52.5%** | **42.74** |
| **Cəmi** | | | 52.64% | **66.57** |

**Dövlət Xidmətləri üzrə orta açıqlıq göstəricisi (Cədvəl-7)**

***Azərbaycan Respublikası Dövlət Xidmətlərinin rəsmi saytlarının Monitorinqi zamanı 1121 informasiya və xidmət blokuna giriş edilib. Təqribən 373 informasiya bloku üzrə yerləşdirilən (33.27%) məlumatlar təhlil olunub. 748 informasiya bloku üzrə (66.73%) məlumatlara çatmaq mümkün olmayıb. Dövlət Xidmətlərinin informasiya açıqlığı keçən dövrlə müqayisədə 5.86% artıb.***




Mərkəzi icra orqanlarının rəsmi internet resurslarının informasiya açıqlığının müəyyən edilməsi üçün nəzərdə tutulan parametrlərə uyğun olaraq *İqtisadiyyat Nazirliyi yanında Vergilər Xidməti www.taxes.gov.az saytı 89.83%-lə birinci yerdədir.* Keçən dövr bu qurum ikinci-üçüncü yerləri bölüşürdü. 2021-ci ildə birinci yerdə olan Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti www.consumer.gov.az saytı 77.96%-lə ikinci, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti www.emdk.gov.az saytı 72.45%-lə üçüncü yerdədir. Keçən monitorinq dövründə ilk üçlükdə olan qurumlar yenə də öz reytinqini saxlayır.

2020-ci ildə birinci, 2021-ci ildə dördüncü yerdə olan Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti www.seferberlik.gov.az saytı 51.49%-lə hazırda beşinci yerdədir.

2020-ci ildə monitorinqə 7 Xidmət cəlb edildiyi halda, 2021-ci ildə və indi 19 Xidmət monitorinq olunub.

***Ümumi götürdükdə dövlət xidmətlərinin Saytlarının informasiya açıqlığı Nazirliklərdən və Komitələrdən iki dəfə aşağıdır.*** Buna baxmayaraq saytların istifadəsi rahatdır və sahələri üzrə məhdud olsa da, maraqlı bilgilər təqdim edir. Bu dövlət qurumlarının İnternet resurslarının mövcud qaydalara uyğunluğu, abunə imkanları və əks əlaqə üçün onlayn formaların mövcudluğu, istifadə rahatlığı, domen rahatlığı, sayt daxilində axtarış sistemi məqbul olsa da bəzi parametrlər üzrə yetərli bilgilər təqdim edilmir.

Dövlət Xidmətləri Portalında www.dxr.az e-xidmətlərin məlumat bazasına inteqrasiya olunmuş 34 elektron xidmətləri tapmaq mümkündür. İnformasiya açıqlığı baxımından müəyyən etdiyimiz kriteriyalara əsasən ən aşağı göstərici 3.38%-lə Milli Hidrometeorologiya Xidmətinin https://meteo.az saytıdır. 2021-ci ildə 6.7%-lə Dövlət Əmək Müfəttişliyi Xidmətinin www.sosial.gov.az/D%C6%8FMXstruktura saytı sonuncu yerdə idi. Bu il Dövlət Əmək Müfəttişliyinin saytı 19.49%-lə 11 yerə yüksəlib.

Digər diqqət çəkən məsələ Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin saytı ilə bağlıdır. 2021-ci ildə bu qurumun saytında heç bir informasiya təqdim edilməmişdi. Bu il isə www.dmx.gov.az saytı 37.4%-lə altıcı yerdədir.

16 mart 2020-ci ildə prezident fərmanı ilə ləğv edilən Xüsusi Dövlət Mühafizə Xidmətinin bazasında 3 yeni qurum təsis olunub. Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi.

Bu qurumlardan Prezidentinin Təhlükəsizlik Xidmətinin www.dmx.gov.az saytı hələ də mövcud deyil.

| **№** | **Dövlət Xidmətləri Cədvəl 6** | | **2021** | **2023** |
|---|---|---|---|---|
| 1 | Vergilər xidməti | www.taxes.gov.az | **93** | **89.83** |
| 2 | Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti | az.gov.consumer.www | **93.1** | **77.96 %** |
| 3 | İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti | az.gov.emdk.www | **93** | **72.45 %** |
| 4 | Dövlət Miqrasiya Xidməti | az.gov.migration.www | **33.8** | **55.67** |
| 5 | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | www.seferberlik.gov.az | **35.5** | **51.49 %** |
| 6 | Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti | www.dmx.gov.az | **0** | **37.40 %** |
| 7 | Bioloji Müxtəlifliyin Qorunması | /az.nationalparks//:https | **18.6** | **36.11** |
| 8 | Dövlət Sərhəd Xidməti | az.gov.dsx.www | **30.5** | **34.50** |
| 9 | Elektron Təhlükəsizlik Xidməti | https://cert.az | **22** | **33.09** |
| 10 | Dövlət Təhlükəszilik Xidməti | www.mns.gov.az | **25.4** | **30.79** |
| 11 | Dövlət Əmək Müfəttişliyi Xidməti | www.sosial.gov.az/ C6%8FMXstruktura%D | **6.7** | **19.49 %** |
| 12 | FHN Tibb Xidməti | az.gov.fhn.tibb.www | **8.4** | **15.86** |
| 13 | Dövlət Yanğından Mühafizə Xidməti | www.dymx.fhn.gov.az | **10.1** | **14.87** |
| 14 | Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti | az.gov.fhn.khg | **10.1** | **14.87 %** |
| 15 | Xüsusi Riskli Xilasetmə Xidməti | az.gov.fhn.xrxx.www | **10.1** | **14.87** |

| | | | | |
|---|---|---|---|---|
| 16 | xilasetmə Xidməti-Xəzər Hövzə Qəza | az.gov.fhn.xhqx.www | **10.1** | **1 4 . 8 7** |
| 17 | Dövlət Yanğın Nəzarəti Xidməti | www.dynx.fhn.gov.az | **8.4** | **1 4 . 8 7** |
| 18 | Milli Hidrometeorologiya Xidməti | https://meteo.az/ | **11.8** | **3.38%** |
| 19 | Prezidentinin Təhlükəsizlik Xidməti .Sayt yoxdur | az.gov.dmx.www | **0** | **0** |
| **Cəmi** | | | 27.4% | **3 5 . 2 8** |

**Agentliklər üzrə orta açıqlıq göstəricisi (Cədvəl-7)**

***Agentliklərın rəsmi saytlarının Monitorinqi zamanı 1829 informasiya və xidmət blokuna giriş edilib. Təqribən 797 informasiya bloku üzrə yerləşdirilən 43.58% məlumatlar təhlil olunub. 1032 informasiya bloku üzrə 56.42% məlumatlara çatmaq mümkün olmayıb.***




Mərkəzi icra orqanlarının rəsmi internet resurslarının informasiya açıqlığının müəyyən edilməsi üçün nəzərdə tutulan parametrlərə uyğun olaraq *Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin https://smb.gov.az saytı əksər parametrlər üzrə yetərli və dolğun bilgi verməsi baxımından diqqət çəkir. Bu qurumun informasiya açıqlığı 85.59%-lə ilk yerdədir.* Bu qurum keçən monitorinq dövründə 67.7%-lə 4-cü yerdə idi.

İkinci yerdə 79.32%-lə Dövlət Turizm Agentliyinin www.tourism.gov.az saytı, üçüncü yerdə isə 76.27%-lə Dövlət Məşğulluq Agentliyinin https://dma.gov.az saytlarıdır. Bu qurumların saytları da 2021-ci ildə müvafiq olaraq 9 və 7-ci yerlərdə qərar tutmuşdu.

2021-ci ildə 76.2%-lə ilk yeri tutan İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin https://its.gov.az saytı hazırda 71.18%-lə 5-ci yerə enib. Üçüncü yerdə olan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi DOST http://dost.gov.az saytı indi 4-cü yerdədir.

Ümumi götürdükdə Agentliklərin Saytlarının istifadəsi rahatdır və sahələri üzrə dolğun bilgilər var. Agentliklərin Dövlət Xidmətləri Portalında www.dxr.az e-xidmətlərin məlumat bazasında 33 elektron xidmətləri təqdim olunub. Keçən il bu 27 idi. İnternet resurslarının mövcud qaydalara uyğunluğu, abunə imkanları və əks əlaqə üçün onlayn formaların mövcudluğu, istifadə rahatlığı, domen rahatlığı, sayt daxilində axtarış sistemi qənaətbəxş olsa da bəzi parametrlər üzrə yetərli bilgilər təqdim edilmir.

**İnformasiya açıqlığı baxımından müəyyən etdiyimiz kriteriyalara əsasən ən pis göstərici 0 %-lə "İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi"nə aiddir. Keçən dövrdə "İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi" ilə yanaşı, sonuncu yerdə QHT-lərə Dövlət Dəstəyi Agentliyi, Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi, Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik ANAMA -nin saytları da var idi. Müqayisə ilə Cədvəl-7 dən tanış olmaq mümkündür.**

| | Agentliklər üzrə orta açıqlıq göstəricisi (Cədvəl-7) | | 2021 % | 2023 % |
|---|---|---|---|---|
| 1 | Kiçik və Orta Biznesin İnkişafı | https://smb.gov.az | 67.7 | 85.59 |
| 2 | Dövlət Turizm Agentliyi | www.tourism.gov.az | 49.1 | 79.32 |
| 3 | Dövlət Məşğulluq Agentliyi | https://dma.gov.az | 59.3 | 76.27 |
| 4 | Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi DOST | http://dost.gov.az | 69.4 | 72.37 |
| 5 | İcbari Tibbi Sığorta üzrə Dövlət | https://its.gov.az | 76.2 | 71.18 |
| 6 | AR Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə (ASAN XİDMƏT) Dövlət Agentliyi | az.gov.asan.www<br>az.gov.vxsida.www | 67.7 | 63.81 |
| 7 | Əqli Mülkiyyət Agentliyi | https://www.copat.gov.az | 61 | 62.71 |
| 8 | Sosial Ekspertiza və-Dövlət Tibbi Reabilitasiya Agentliyi | https://www.sosial.gov.az/ TSEKstruktura | 5 | 59.32 |
| 9 | Dövlət Reklam Agentliyi | az/az.gov.adra//:https | 42.3 | 54.83 |
| 10 | Qida Təhlükəsizliyi Agentliyi | www.afsa.gov.az | 50.8 | 54.74 |
| 11 | Bakı Nəqliyyat Agentliyi | https://www.bna.az | 44 | 54.23 |
| 12 | İqtisadi Zonaların İnkişaf Agentliyi | http://www.economiczones.gov.az/ | 30.5 | 54.23 |
| 13 | Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi | http://www.meda.gov.az/ | 5 | 49.66 |
| 14 | Dövlət Dəniz və Liman Agentliyi | az.gov.ardda.www | .305 | 47.03 |
| 15 | İnnovasiya və Rəqəmsal İnkişaf“ publik hüquqi şəxs ”Agentliyi | https://mincom.gov.az/ az/ view/organization/35/ | 3.3 | 45.76 |
| 16 | Medianın İnkişafı Agentliyi | www.kivdf.gov.az<br>https://media.gov.az | 18.6 | 45.16 |
| 17 | Strateji Obyektlərin Mühafizəsi Dövlət .Agentliyi | az.gov.dmx.www | 0 | 44.06 |
| 18 | Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik ANAMA | www.anama.gov.az | 0 | 44.06 |

| | | | | |
|---|---|---|---|---|
| 19 | Azərbaycan Yerüstü Nəqliyyat" publik hüquqi şəxs "Agentliyi | https://mincom.gov.az/ az/ view/organization/36/ | 3.3 | **42.45** |
| 20 | Avtomobil Yolları Dövlət Agentliyi | az.gov.aayda.www | 38.9 | **38.30** |
| 21 | Mənzil İnşaatı Dövlət Agentliyi | /az/az.gov.mida//:https | 20.3 | **33.15** |
| 22 | Dövlət Mülki Aviasiya Agentliyi | www.caa.gov.az | 32.2 | **30.50** |
| 23 | lərə Dövlət Dəstəyi Agentliyi-QHT | /az.ngogrant//:https | 0 | **27.37** |
| 24 | Azərbaycan Respublikasının Kosmik" "(Azərkosmos) Agentliyi | ?/az.azercosmos//:https az=lang | 62.7 | **27.11** |
| 25 | Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi | www.ttnda.fhn.gov.az | 10.1 | **22.49** |
| 26 | Azərbaycan Dövlət İnformasiya (AZƏRTAC) Agentliyi | https://azertag.az/ | 25.4 | **21.10** |
| 27 | Sənayedə İşlərin Təhlükəsiz Görülməsi Mədən Nəzarəti Dövlət-və Dağ | www.dag-meden.fhn.gov.az | 10.1 | **20.72** |
| 28 | Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyi | www.nuve.fhn.gov.az | 8.4 | **20.66** |
| 29 | Sosial Xidmətlər Agentliyi | https://www.sosial.gov.az/ | 8.4 | **3.38** |
| 30 | Dövlət Mülki Aviasiya Agentliyi | az.gov.caa.www | 18.6 | **yoxdur** |
| 31 | İnformasiya Kommunikasiya" "Texnologiyaları Agentliyi | https://mincom.gov.az/ az/ view/organization/34 | 0 | **yoxdur** |
| **Cəmi** | 1351.56 | | 27.5% | **%43.5** |

**Fondlar, İdarələr, Mərkəzlər, MMC (Cədvəl-8)**

***Fondlar, İdarələr, Mərkəzlər, MMC-lərin rəsmi saytlarının Monitorinqi zamanı 1652 informasiya və xidmət blokuna giriş edilib. Təqribən 662 informasiya bloku üzrə yerləşdirilən (40.07%) məlumatlar təhlil olunub. 990 informasiya bloku üzrə (59.93%) məlumatlara çatmaq mümkün olmayıb.***




Mərkəzi icra orqanlarının rəsmi internet resurslarının informasiya açıqlığının müəyyən edilməsi üçün nəzərdə tutulan parametrlərə uyğun olaraq *Dövlət İmtahan Mərkəzi www.dim.gov.az rəsmi saytı əksər parametrlər üzrə yetərli və dolğun bilgi verməsi baxımından diqqət çəkir. Bu qurumun informasiya açıqlığı 74.57%-lə ilk yerdədir.* İkinci yerdə 61.01%-lə Dövlət Neft Fondunun https://www.oilfund.az saytı, üçüncü yerdə isə 61.01%-lə İstehlak Mallarının Ekspertizası Mərkəzi MMC https://ekspertiza.az saytı gəlir. Xatırladaq ki, 2021-ci ilin monitorinq dövrü ilə müqayisədə ilk üçlükdə olan iki qurum yerdəyişmə edib.

Milli Arxiv İdarəsinin www.milliarxiv.gov.az saytı 1-ci yerdən 9-cu, ikinci yerdə olan Sahibkarlığa Kömək Milli Fondu www.edf.gov.az saytı isə 2-ci yerdən 14-cü yerə enib. 3-cü yerdə olan Dövlət Neft Fondu https://www.oilfund.az saytı isə hazırda 2-ci pilləyə yüksəlib.

Ümumi götürdükdə Fondların, İdarələrin, Mərkəzlərin, MMC-lərin Saytlarının istifadəsi əsasən rahatdır. Xüsusilə də Dövlət İmtahan Mərkəzi, Dövlət Neft Fondu, İstehlak Mallarının Ekspertizası Mərkəzi MMC ilə yanaşı, Milli Arxiv İdarəsi, Sahibkarlığa Kömək Milli Fondu, İpoteka və Kredit Zəmanət Fondu, Elmin İnkişafı Fondu, "AzInTelecom" MMC-nin sahələri üzrə yetərli bilgilər tapmaq olar.

İnternet resurslarının mövcud qaydalara uyğunluğu, abunə imkanları və əks əlaqə üçün onlayn formaların mövcudluğu, istifadə rahatlığı, domen rahatlığı, sayt daxilində axtarış sistemi qənaətbəxş olsa da bəzi parametrlər üzrə yetərli bilgilər təqdim edilmir.

Struktur bölmələrinin səlahiyyət çərçivələri, rəhbər, onun müavinləri və struktur bölmələri rəhbər işçilərinin mövcud tarif stavkası, Qurumun büdcəsi və onun icrası haqqında məlumat, Büdcədənkənar daxilolmalar və onların istiqamətləri barədə informasiyalar yoxdur.

**İnformasiya açıqlığı baxımından müəyyən etdiyimiz kriteriyalara əsasən ən pis göstərici “Bakı Taksi Xidməti” MMC, “İnformasiya-Kommunikasiya Texnologiyalarının Tətbiqi və Tədrisi Mərkəzi” MMC, Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzi, Dövlət Sosial Müdafiə Fonduna aiddir. 2021-ci ildə bu saytlarda da zəif olsa da müəyyən nəticələr var idi. Amma indi nəticələr 0 qiymətləndirilib.**

| | Fondlar, İdarələr, Mərkəzlər, MMC (Cədvəl-9) | | 2021 | 2023 |
|---|---|---|---|---|
| 1 | Dövlət İmtahan Mərkəzi | az.gov.dim.www | 59.3 | 74.57 |
| 2 | Dövlət Neft Fondu | https://www.oilfund.az | 61 | 61.01 |
| 3 | İstehlak Mallarının Ekspertizası Mərkəzi MMC | https://ekspertiza.az | 8.4 | 61.01 |
| 4 | İpoteka və Kredit Zəmanət Fondu | az.gov.mcgf.www | 54.2 | 57.62 |
| 5 | Elmin İnkişafı Fondu | www.elmfondu.gov.az https://www.sdf.gov.az | 33.8 | 57.20 |
| 6 | Gənclər Fondu | https://youthfoundation.az/ | 33.8 | 55.93 |
| 7 | MMC "Azərpoçt" | https://www.azerpost.az | 35.5 | 55.08 |
| 8 | İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi | az/az.gov.ereforms//:https | 38.9 | 54.23 |
| 9 | Milli Arxiv İdarəsi | www.milliarxiv.gov.az | 71.1 | 54.23 |
| 10 | Memarlıq-Dövlət Tarix "İçərişəhər" Qoruğu İdarəsi | az/az.gov.icherisheher//:https | 22 | 52.54 |
| 11 | Dövlət Radiotezliklər İdarəsi | https://dri.az | 42.3 | 52.54 |
| 12 | MMC "AzInTelecom" | https://azintelecom.az | 52.5 | 50 |
| 13 | Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu | https://azpromo.az | 0 | 48.30 |
| 14 | Sahibkarlığa Kömək Milli Fondu | az.gov.edf.www | 67.7 | 47.71 |
| 15 | MMC "Aztelekom" | https://www.aztelekom.az | 42.3 | 46.61 |
| 16 | MMC "Bakı Telefon Rabitəsi" | https://www.baktelecom.az | 18.6 | 39.83 |
| 17 | Akkreditasiya Mərkəzi | https://www.accreditation.gov.az | 11.8 | 39.83 |
| 18 | "Sumqayıt Kimya Sənaye Parkı" MMC | https://scip.az | 30.5 | 37.71 |
| 19 | Dənizkənarı Bulvar İdarəsi | /az.gov.bulvar//:http | 30.5 | 37.71 |
| 20 | Baş Dövlət Yol Polisi İdarəsi | az.gov.dyp.www | 22 | 37.71 |

| | | | | |
|---|---|---|---|---|
| 21 | Televiziya Yayımı və Peyk-Radio“ İstehsalat Birliyi ”Rabitəsi | https://teleradio.az | **33.8** | **32.62** |
| 22 | "Hərbiləşdirilmiş Mühafizə İdarəsi" MMC | https://mincom.gov.az/ az/ view/organization/13/ | **5** | **27.11** |
| 23 | Bakı Biznes Mərkəzi | http://bbm-az.com | **25.4** | **22.88** |
| 24 | Dördüncü Sənaye İnqilabının Təhlili və Kommunikasiya Mərkəzi | www.economy.gov.az | **0** | **19.15** |
| 25 | MMC ”Bakı Taksi Xidməti“ | https://mincom.gov.az/ az/ view/organization/25/ | **5** | **yoxdu r** |
| 26 | Kommunikasiya-İnformasiya“ Texnologiyalarının Tətbiqi və Tədrisi MMC ”Mərkəzi | https://mincom.gov.az/ az/ view/organization/18/ | **5** | **yoxdu r** |
| 27 | Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzi | az.gov.fhn.bvim.www | **10.1** | **yoxdu r** |
| 28 | Dövlət Sosial Müdafiə Fondu | https://www.sosial.gov.az/ dsmfstruktura | **8.4** | **yoxdu r** |
| **Cəmi** | | | **28.58 %** | **40.11 %** |

**Şirkətlər, komissiyalar, institutlar və digər hüquqi şəxslər (Cədvəl-10)**

***Şirkətlər, komissiyalar, institutlar və digər hüquqi şəxslərin rəsmi saytlarının Monitorinqi zamanı 944 informasiya və xidmət blokuna giriş edilib. Təqribən 320 informasiya bloku üzrə yerləşdirilən (33.90%) məlumatlar təhlil olunub. 624 informasiya bloku üzrə (66,10%) 5məlumatlara çatmaq mümkün olmayıb.***




Mərkəzi icra orqanlarının rəsmi internet resurslarının informasiya açıqlığının müəyyən edilməsi üçün nəzərdə tutulan parametrlərə uyğun olaraq şirkətlərin, komissiyaların, institutların və digər hüquqi şəxslərin məlumat açıqlığı aşağıdır.

Bu istiqamətlər üzrə nəticəsi yüksək olan qurumlar da var. *Dövlət Neft Şirkəti www.socar.az rəsmi saytı əksər parametrlər üzrə yetərli və dolğun bilgi verməsi baxımından diqqət çəkir. Bu qurumun informasiya açıqlığı 76.94%-lə birincidir.*

İkinci yerdə 55.93-lə Standartlaşdırma İnstitutu" (AZSTAND) http://www.azstand.gov.az saytı, üçüncü yerdə isə 50.84-lə Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın www.antikorrupsiya.gov.az saytı gəlir. Keçən dövrlə müqayisədə birinci yerdə dəyişiklik olmasa da 2 və 3-cü yerlərdə dəyişiklik olub. 2021-ci ildə 2 və 3-cü yerləri bölüşən "Azəriqaz" İstehsalat Birliyi http://azeriqaz.az/az və Dövlət İdarəçilik Akademiyasının https://dia.edu.az/ saytı indi müvafiq olaraq 9 və 5-ci yerləri tutur.

Şirkətlərin, komissiyaların, institutların və digər hüquqi şəxslərin Saytlarının istifadəsi əsasən rahatdır. Saytlarda öz sahələri üzrə maraqlı bilgilər tapmaq olar. İnternet resurslarının mövcud qaydalara uyğunluğu, istifadə rahatlığı, domen rahatlığı, sosial şəbəkələrə inteqrasiyası qənaətbəxş olsa da bəzi parametrlər üzrə yetərli bilgilər təqdim edilmir. Bu qurumlardan Dövlət Xidmətləri Portalında www.dxr.az e-xidmətlərin məlumat bazasında yalnız "Azəriqaz" İstehsalat Birliyinin 21 elektron xidmətləri təqdim olunub.

**İnformasiya açıqlığı baxımından müəyyən etdiyimiz kriteriyalara əsasən ən pis göstərici İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu http://ier.az saytına məxsusdur. Bu sayt 2021-ci ildə 25.4%-lə 6-cı yerdə idi. İndi isə monitorinq dövründə sayta giriş mümkün olmayıb. Digər pis nəticə isə Azərbaycanda Proqram İdarəetmə Qurumu (PİQ) http://pao.az/ saytına aiddir. 8.47%-lə 15-ci yeri tutur.**

| | Şirkətlər, komissiyalar, institutlar və digər hüquqi şəxslər | | 2021 | 2023 |
|---|---|---|---|---|
| 1 | Dövlət Neft Şirkəti | az.socar.www | 74.5 | 76.94 |
| 2 | AZSTAN) ”Standartlaşdırma İnstitutuD | http://www.azstand.gov.az | .152 | 55.93 |
| 3 | Korrupsiyaya Qarşı Mübarizə üzrə | a.gov.antikorrupsiya.www | .305 | 50.84 |
| 4 | Satınalma www.etender.gov.az | https://etender.gov.az | .135 | 47.45 |
| 5 | Dövlət İdarəçilik Akademiyası | az.edu.dia//:https/ | .338 | 45.76 |
| 6 | Dövlət Sığorta Kommersiya Şirkəti | www.azersigortaaz. | .152 | 44.06 |
| 7 | Azərbaycan Metrologiya İnstitutu"" | http://metrology.az | 22 | 43.64 |
| 8 | Prezident yanında Ali Attestasiya | www.aak.gov.az | .84 | 42.37 |
| 9 | İstehsalat Birliy "Azəriqaz"i | a/az.azeriqaz//:httpz | .355 | 34.74 |
| 10 | Tarif Şurası | www.tariffcouncil.gov.az http://tariff.gov.az | .322 | 28.89 |
| 11 | Lisenziyalar və İcazələr Portalı | https://lisenziya.gov.az | .84 | 25.42 |
| 12 | girov götürülmüş ,Əsir və itkin düşmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası | www.human.gov.az | .135 | 18.64 |
| 13 | Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya | www.sosial.gov.az/ observatoriyarehber | 5 | 11.01 |
| 14 | Fövqəladə Hallar Nazirliyinin | .gov.fhn.akademiya.www | .67 | 9.32 |
| 15 | Azərbaycanda Proqram İdarəetmə PİQ) Qurumu) | http://pao.az/ | 0 | 8.47 |
| 16 | İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu | http://ier.az | .254 | yoxdu |
| Cəmi | | | 20.5 | 33.96 |

**QSC və ASC üzrə orta açıqlıq göstəricisi (Cədvəl-11)**

***Açıq (ASC) və Qapalı Səhmdar Cəmiyyətlərin (QSC) rəsmi saytlarının Monitorinqi zamanı 1180 informasiya və xidmət blokuna giriş edilib. Təqribən 518 informasiya bloku üzrə yerləşdirilən 43.90% məlumatlar təhlil olunub. 662 informasiya bloku üzrə (56,10%) məlumatlara çatmaq mümkün olmayıb***.




2021-ci illə müqayisədə QSC və ASC üzrə informasiya açıqlığı 35.6%-dən 43.91%-ə yüksəlib. Təqribən 8.3% artım olub.

Bu dövlət qurumları bəzi parametrlər üzrə yetərli bilgilər təqdim etməsə də, İnternet resurslarının mövcud qaydalara uyğunluğu, abunə imkanları və əks əlaqə üçün onlayn formaların mövcudluğu, istifadə rahatlığı, domen rahatlığı, sayt daxilində axtarış sistemi normal qiymətləndirilir.

*Mərkəzi icra orqanlarının rəsmi internet resurslarının informasiya açıqlığının müəyyən edilməsi üçün nəzərdə tutulan parametrlərə uyğun olaraq "Azərbaycan Dəmir Yolları" QSC-nin https://corp.ady.az saytı 67.79%-lə 1-ci yerdədir.* 2021-ci ildə bu qurum 52.5%-lə 4-cü yerdə idi. 2021-ci ildə 62.7%-lə 1-ci yeri tutan "AzerGold" QSC www.azergold.az saytı hazırda 41.15%-lə 12 ci yerə enib. Onu da qeyd etməliyik bu qurumun öz sahəsi üzrə məlumat zənginliyi olduqca yüksəkdir.

İkinci yerdə 66.10%-lə Azərsu ASC www.azersu.az saytıdır. Bu sayt keçən dövrdə 5-ci yerdə idi. Elektron xidmətlərin qiymətləndirilməsində də Azərsu ASC çox yüksək nəticələrə malikdir.

Üçüncü yerdə isə 64.40%-lə "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin https://abb-bank.az/ saytı gəlir. Bu sayt keçən dövrdə 2-ci yerdə idi.

Ümumi götürdükdə bu kateqoriyada olan qurumların ortalama yarıdan çox informasiyaları təqdim edilməsə də açıq və qapalı səhmdar cəmiyyətlərin Saytlarının istifadəsi rahatdır və məhdud sahələr üzrə dolğun bilgilər təqdim edir. *Bu qurumların Dövlət Xidmətləri Portalında www.dxr.az e-xidmətlərin məlumat bazasında 72 elektron xidmətləri təqdim olunub. Ötən il bu rəqəm 63 idi.*

Bundan əlavə "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC https://portofbaku.com və Azərbaycan Hava Yolları QSC www.azal.az öz sahələri üzrə olduqca maraqlı məlumat zənginliyinə malikdir.

**İnformasiya açıqlığı baxımından müəyyən etdiyimiz kriteriyalara əsasən ən aşağı göstərici 11.01%-lə Azərbaycan Yaşıllaşdırma və Landşaft Quruluşu" ASC-nin http://**

**www.ayl.eco.gov.az saytına aiddir. Keçən dövrdə 0%-lə sonuncu olan "Təmiz Şəhər" ASC-nin https://tamizshahar.az saytı bu il 40.33%-lə 15-ci yerə yüksəlib.**

| | **QSC və ASC üzrə orta açıqlıq göstəricisi (Cədvəl-11)** | | **2021** | **2023** |
|---|---|---|---|---|
| 1 | QSC ”Azərbaycan Dəmir Yolları“ | https://corp.ady.az | **52.5** | **67.79** |
| 2 | Azərsu ASC | az.azersu.www | **49.1** | **66.10** |
| 3 | ASC ”Azərbaycan Beynəlxalq Bankı“ | /az.bank-abb//:https | **62.7** | **64.40** |
| 4 | Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC | az.gov.mst.www | **49.1** | **59.32** |
| 5 | QSC "Bakı Metropoliteni" | az.gov.metro.www | **52.5** | **52.54** |
| 6 | Aqrarkredit QSC | az.aqrarkredit.www | **25.4** | **49.15** |
| 7 | AzərEnerji ASC | az.gov.azerenerji.www | **22** | **47.03** |
| 8 | Azərxalça ASC | az.azerxalca.www | **20.3** | **44.32** |
| 9 | ASC "AzərTürk Bank" | /az.atb//:https | **55.9** | **44.06** |
| 10 | ”Bakı Beynəlxalq Dəniz Ticarət Limanı“ | https://portofbaku.com/ | **49.1** | **43.08** |
| 11 | Azərişıq ASC | https://www.azerishiq.az | **44** | **42.37** |
| 12 | QSC ”AzerGold“ | www.azergold.az | **62.7** | **41.15** |
| 13 | Azəristiliktəchizat ASC | az.gov.azeristilik.www | **32.2** | **38.98** |
| 14 | ASC ”Azərlotereya“ | https://azerlotereya.com | **15** | **38.47** |
| 15 | "Təmiz Şəhər" ASC | https://tamizshahar.az | **0** | **40.33** |
| 16 | Azərbaycan Hava Yolları QSC | az.azal.www | **33.8** | **37.28** |
| 17 | "Azərbaycan İnvestisiya Şirkəti" ASC | https://www.aic.az | **15** | **30.88** |
| 18 | Azərbaycan Televiziya və Radio“ QSC ”Verilişləri | az.aztv.www | **35.5** | **30.50** |
| 19 | "Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC | //:az http/az.gov.att//:http /az.gov.tedaruk | **25.4** | **29.57** |
| 20 | Azərbaycan Yaşıllaşdırma və Landşaft ASC "Quruluşu | http://www.ayl.eco.gov.az | **10.1** | **11.01** |
| **Cəmi** | | | **35.6%** | **43.91** |

**İlk onluqda olan qurumlar**

***İlk onluqda olan dövlət qurumlarının informasiya açıqlığı 81.43%-dir. Bu 2021-ci illə müqaisədə 6%-lik bir geriləmənin olduğunu göstərir. Keçən il ilk 10 saytın orta göstəricisi 87,40% olub.***

Monitorinq prosesi göstərir ki, dövlət qurumlarının informasiya açıqlığı siyasətində hər bir qurumun rəhbərliyinin fərdi yanaşması və qanunlara münasibəti çox böyük rol oynayır. Xüsusi məqsədləri və ya məxviliyi olan dövlət qurumları istisna olmaqla digər dövlət qurumlarının öz əlində olan informasiyaları açıqlamaması və ya qismən açıqlaması mərkəzləşmiş siyasət ola bilməz. İlk onluqda olan qurumların fəaliyyət istiqamətlərinə baxsaq, gəlinən qənaətin əsasız olmadığı daha aydın görünər.

**Cədvəl-12**

| | | | 2021 | 2023 |
|---|---|---|---|---|
| 1 | **Vergilər xidməti** | www.taxes.gov.az | **93** | **89.83** |
| 2 | **Kiçik və Orta Biznesin İnkişafı Agentliyi** | https://smb.gov.az | **67.7** | **85.59** |
| 3 | **Dövlət Gömrük Komitəsi** | az.gov.customs.www | **86.4** | **84.27** |
| 4 | **Maliyyə Nazirliyi** | az.gov.maliyye.www | **69.5** | **82.62** |
| 5 | **Əmək və Əhalinin Sosial Müdafiəsi** | az.gov.mlspp.www | **89.8** | **81.18** |
| 6 | **Dövlət Turizm Agentliyi** | www.tourism.gov.az | **49.1** | **79.32** |
| 7 | **Ekologiya və Təbii Sərvətlər Nazirliyi** | az.gov.eco.www | **64.4** | **79.66** |
| 8 | **Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti** | az.gov.consumer.www | **93.1** | **77.96** |
| 9 | **Dövlət Statistika Komitəsi** | org.azstat.www | **84** | **76.94** |
| 10 | **Dövlət Neft Şirkəti** | az.socar.www | **74.5** | **76.94** |
| | | | **87.40** | **81.43** |

**Reytinq Cədvəlində sonuncu onluq aşağıdakı kimidir:**
Son 10-luqda yerləşən qurumların reytinqi keçən il olduğu kimi yenə də 0 olub.

**(Cədvəl-13)**

| | **Sonuncu onluqda olan qurumlar**<br><br>**(Cədvəl-13)** | | **2021** | **2023** |
|---|---|---|---|---|
| 1 | Azərbaycanda Proqram İdarəetmə Qurumu (PİQ) | http://pao.az/ | **0** | **8.47** |
| 2 | Milli Hidrometeorologiya Xidməti | https://meteo.az/ | **11.8** | **3.38** |
| 3 | Sosial Xidmətlər Agentliyi | https://www.sosial.gov.az/SXA | **8.4** | **3.38** |
| 4 | "İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi" | https://mincom.gov.az/az/view/organization/34 | **0** | **0** |
| 5 | "Bakı Taksi Xidməti" MMC | https://mincom.gov.az/az/view/organization/25/ | **5** | **0** |
| 6 | "İnformasiya-Kommunikasiya Texnologiyalarının Tətbiqi və Tədrisi Mərkəzi" MMC | https://mincom.gov.az/az/view/organization/18/ | **5** | **0** |
| 7 | Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzi | www.bvim.fhn.gov.az | **10.1** | **0** |
| 8 | Dövlət Sosial Müdafiə Fondu | https://www.sosial.gov.az/ | **8.4** | **0** |
| 9 | İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu | http://ier.az | **25.4** | **0** |
| 10 | Prezidentin Təhlükəsizlik Xidməti | | **0** | **0** |
| | | | | |
| | | | | |

**Monitorinq olunan qurumların müqaisəli ümumi açıqlıq göstəriciləri (ortalama 44,15%)**




**2021-ci il nəticələri ilə 2023-cü il nəticələrinin müqaisəli göstərilməsi**



**Monitorinq zamanı dövlət qurumlarının rəsmi saytlarında ən çox açıqlanan informasiyalar aşağıdakılardır: (Cədvəl-14)**

| % | 2021 Ən çox açıqlanan İnformasiyalar<br>28 meyar üzrə 49.1% | 2023 Ən çox açıqlanan İnformasiyalar<br>25 meyar üzrə 42.37% |
|---|---|---|
| 95-100 | 1. Qurumun tarixi. 100<br>2. Dövlət qurumunun fəaliyyətini təmin edən qanunverici baza. Əsasnamə və təlimatlar.100<br>3. Dövlət qurumunun yerləşdiyi ünvan 100<br>4. Dövlət qurumu ilə əks əlaqə üçün ümumi imkan 100<br>5. Mətbuat üçün açıqlamalar və onların tezliyi100<br>6. Dövlət qurumuna aid olan informasiya100<br>7. Dövlət qurumuna aid olan hər cür başqa cari informasiya100<br>8. Abunə imkanları və əks əlaqə üçün onlayn formaların mövcudluğu 100<br>9. İstifadə rahatlığı100<br>10. Domen rahatlığı 100<br>11. Sosial mediadan istifadə imkanları və onların yenilənməsi (aktivliyi) 100<br>12. Elektron formada təklif olunan xidmətlər. Xidmətlərin statistikası ( sayı) 98<br>13. Dövlət qulluqçusunun etika qaydaları haqqında bilgi 98<br>14. Qurumdaxili əmr və qərarlar 97<br>15. Dövlət qurumunun strukturunun ümumi sxemi. Aparat. 95<br>16. Rəhbərləri haqqında məlumatlar və kollegiya 95<br>17. Dövlət qurumunun həyata keçirdiyi proqram və layihələrlə bağlı bölmə və yetərli məlumatlar 95<br>18. Onlayn müraciət imkanı 95<br>19. Vəzifəli şəxslər tərəfindən vətəndaşların qəbul norma və qaydaları barədə ümumi bilgi 95<br>20. Dövlət qurumunda vətəndaşların qəbul qaydaları 95<br>21. Dövlət qurumunun ayrı-ayrı vəzifəli şəxsləri tərəfindən vətəndaşların qəbul günləri və saatları. Digər qəbul formaları (video qəbul və s). 95 | 1. Qurumun tarixi. 100<br>2. Rəhbərləri haqqında məlumatlar və kollegiya 95<br>3. Dövlət qurumunun fəaliyyətini təmin edən qanunverici baza. Əsasnamə və təlimatlar.95<br>4. Dövlət qurumunun yerləşdiyi ünvan 100<br>5. Dövlət qurumunun ünvanının marşrut və sxemi 100<br>6. Dövlət qurumunun strukturunun ümumi sxemi. Aparat 95<br>7. Qurumun tabeliyindəki informasiya sistemləri 95<br>8. Qurumdaxili əmr və qərarlar 97<br>9. Bu cür aktların reyestri (qəbul və qüvvəyə minmə tarixi də daxil olmaqla) 95<br>10. Dövlət qurumunun həyata keçirdiyi proqram və layihələrlə bağlı bölmə və yetərli məlumatlar 95<br>11. Dövlət qurumu ilə əks əlaqə üçün ümumi imkan 100<br>12. Mətbuat üçün açıqlamalar və onların tezliyi 100<br>13. Dövlət qurumuna aid olan informasiya 100<br>14. Dövlət qurumuna aid olan hər cür başqa cari informasiya 100<br>15. Elektron formada təklif olunan xidmətlər. Xidmətlərin statistikası ( sayı) 98<br>16. Onlayn müraciət imkanı 100<br>17. Dövlət qurumunun ayrı-ayrı vəzifəli şəxsləri tərəfindən vətəndaşların qəbul günləri və saatları. Digər qəbul formaları (video qəbul və s 95<br>18. Dövlət qurumunun İnternet resurslarının mövcud qaydalara uyğunluğu 95<br>19. Abunə imkanları və əks əlaqə üçün onlayn formaların mövcudluğu 100<br>20. İstifadə rahatlığı100<br>21. Domen rahatlığı 100<br>22. Sosial mediadan istifadə imkanları və onların yenilənməsi (aktivliyi) 95 |
| 85-90 | 1. Həm ümumi xarakterli, həm də ayrı-ayrı xidmət və alt bölümlərin telefon və faks nömrələri 90<br>2. Mümkün olan bütün e-poçt ünvanları 90<br>3. Dövlət qurumunun ünvanının marşrut və sxemi 90 | 1. Əsas rəhbərin və onun müavin(lər)inin bioqrafiyaları 90<br>2. Dövlət qulluqçusunun etika qaydaları haqqında bilgi 90<br>3. Sayt daxilində axtarış 90 |

**Dövlət qurumlarının rəsmi saytlarında əsasən açıqlanan informasiyalar:(Cədvəl-15)**

| % | Əsasən və qismən açıqlanan İnformasiyalar<br>19 meyar üzrə 32.2% | Əsasən və qismən açıqlanan İnformasiyalar<br>17 meyar üzrə 28.81% |
|---|---|---|
| 65-80 | 1. Dövlət qurumunun alt bölmələri və regional strukturu 80<br>2. Struktur bölmələrinin rəhbərləri və onlarla əlaqə saxlamaq üçün imkanlar 80<br>3. Əsas rəhbərin və onun müavin(lər)inin bioqrafiyaları 80<br>4. Dövlət qurumunun təklif etməli olduğu mütləq xidmətlər 80<br>5. Dövlət qurumu tərəfindən təklif edilən əlavə xidmətlər 80<br>6. Dövlət qurumu tərəfindən tenderlər, hərraclar və yarışmaların keçirilmə qaydaları 75<br>7. Tenderlərin, hərracların keçirilməsi ilə bağlı elanlar və nəticələri 75<br>8. Struktur bölmələrinin dəqiq (tam) ünvanları 70<br>9. Dövlət qurumu və onun struktur bölmələrinə işə qəbulun hüquqi bazası haqqında bilgi 70<br>10. Qaynar xətt 70<br>11. Çağrı Mərkəzi 70<br>12. Dövlət qurumu və onun struktur bölmələrindəki mövcud boş iş yerləri haqqında elanlar 65<br>13. Tender və yarışmaların nəticələri 65<br>14. Dövlət qurumunun cari norma-(qanun)yaratma fəaliyyəti 65 | 1. Həm ümumi xarakterli, həm də ayrı-ayrı xidmət və alt bölümlərin telefon və faks nömrələri 70<br>2. Mümkün olan bütün e-poçt ünvanları 70<br>3. Dövlət qurumunun alt bölmələri və regional strukturu 80<br>4. Struktur bölmələrinin rəhbərləri və onlarla əlaqə saxlamaq üçün imkanlar 80<br>5. Struktur bölmələrinin dəqiq (tam) ünvanları 80<br>6. Bütün mümkün struktur bölmələrinin rəhbərləri haqqında bioqrafik bilgilər 70<br>7. Ayrı-ayrı struktur bölmələrinin rəhbərləri ilə əks əlaqə imkanları 70<br>8. Dövlət qurumunun təklif etməli olduğu mütləq xidmətlər 80<br>9. Dövlət qurumu tərəfindən təklif edilən əlavə xidmətlər 80<br>10. Qaynar xətt 75<br>11. Çağrı Mərkəzi 70<br>12. Dövlət qurumu və onun struktur bölmələrinə işə qəbulun hüquqi bazası haqqında bilgi<br>13. Tenderlərin, hərracların keçirilməsi ilə bağlı elanlar və nəticələri 75<br>14. Dövlət qurumunun cari norma-(qanun)yaratma fəaliyyəti 80<br>15. Bütün mümkün normativ aktların layihələri (tam mətni)<br>16. Dövlət qurumunun norma-(qanun)yaratma fəaliyyəti ilə bağlı arxiv 80 |
| 50-60 | 1. Ayrı-ayrı struktur bölmələrinin rəhbərləri ilə əks əlaqə imkanları 60<br>2. Xidmətlərdən istifadə qaydaları 60<br>3. Dövlət qurumunun rəhbəri ilə | 1.Dövlət qurumunda vətəndaşların qəbul qaydaları 50 |

**Dövlət qurumlarının rəsmi saytlarında bir qayda olaraq açıqlanmayan və ya səthi açıqlanan informasiyalar aşağıdakılardır: (Cədvəl-16)**

| % | Açıqlanmayan və ya az açıqlanan İnformasiyalar | Açıqlanmayan və ya az açıqlanan İnformasiyalar 17 meyar üzrə |
|---|---|---|
| 0 | 1. Struktur bölmələrinin səlahiyyət çərçivələri -0<br>2. Rəhbər, onun müavinləri və struktur bölmələri rəhbər işçilərinin mövcud tarif | 1. Rəhbər, onun müavinləri və struktur bölmələri rəhbər işçilərinin mövcud tarif stavkası-0<br>2. Bu cür layihələrin müzakirəsində vətəndaşların iştirak şərtləri-0 |
| 5-10 | 1. Qurumun büdcəsi və onun icrası haqqında məlumat 5<br>2. Büdcədənkənar daxilolmalar və onların istiqamətləri barədə informasiya 5 | 1. Struktur bölmələrinin səlahiyyət çərçivələri 10<br>2. Qurumun büdcəsi və onun icrası haqqında məlumat 10<br>3. Büdcədənkənar daxilolmalar və |
| 15-35 | 1. Boş iş yerləri haqqında elanların arxivi 20<br>2. İşə qəbulla bağlı komissiyalar haqqında bilgi 25<br>3. Tender və yarışmaların nəticələri ilə bağlı mübahisələrin həlli qaydaları 25 | 1. Dövlət qurumuna getmək üçün müxtəlif istiqamətlərdən gələn ictimai nəqliyyat 20<br>2. İşə qəbulun norma və qaydaları 30<br>3. Dövlət qurumu və onun struktur bölmələrindəki mövcud boş iş yerləri haqqında elanlar 30<br>4. Boş iş yerləri haqqında elanların arxivi 20<br>5. Dövlət qurumu tərəfindən tenderlər, hərraclar və yarışmaların keçirilmə qaydaları 20 |
| 40-45 | 1. Bütün mümkün normativ aktların layihələri (tam mətni) 40<br>2. Bütün mümkün struktur bölmələrinin rəhbərləri haqqında | 1. Dövlət qurumunun rəhbəri ilə əks əlaqə imkanları 40<br>2. Vəzifəli şəxslər tərəfindən vətəndaşların qəbul norma və qaydaları |

**Monitorinqin yekunu üzrə əldə olunan ümumi nəticələr**
**Müsbət tendensiyalar:**

1. Dövlət qurumlarının əksəriyyətində İnternet resurslarının mövcud qaydalara uyğunluğu əsasən normaldır, istifadə üçün rahatdır, informasiya açıqlığı, texniki imkanları və funksionallığı qənaətbəxşdir.
2. Dövlət qurumunun yerləşdiyi ünvanları, domen rahatlığını, dövlət qurumu ilə əks əlaqə üçün e-mail ünvanı və onlayn müraciət imkanı əsasən mövcuddur.
3. Nazirliklər üzrə elektron xidmətlərin sayı və keyfiyyəti, əksəriyyət saytlarda sahələr üzrə zəruri bilgilər və bölmələr üzrə məlumat dolğundur.
4. Mətbuat üçün açıqlamaların tezliyi qənaətbəxşdir. Sosial şəbəkələrdə aktivliyin yüksəlməsi diqqət çəkir.

**Əsas çatışmazlıqlar**:

1. Bir sıra dövlət qurumlarında hələ də İnformasiya əldə edilməsi haqqında Qanunun tələblərinə müvafiq olaraq informasiya infrastrukturu formalaşmayıb.
2. İnternet resursların əksəriyyətində elektron qaydada informasiya sorğusunun təqdim olunması üçün platforma yetərsizdir, Bəzi saytlarda ümumiyyətlə sorğu tələb etmək bölməsi yoxdur. Yalnız müraciət etmək mümkündür. Sorğuçülarda Qanunla nəzərdə tutulan informasiyalardan əlavə informasiyalar tələb olunur. Qurumlar arası fərqliliklər ciddi şəkildə sürdürülür.
3. Qanunun tələbinə baxmayaraq informasiya məsələləri üzrə məsul şəxs və ya müvafiq bölmə yaradılmayıb və bu barədə məlumat xırda istisnalar olmaqla saytlarda mövcud deyil
4. Dövlət qurumları bir qayda olaraq büdcəsinin xərclənməsi ilə bağlı informasiyaları gizli saxlayır. O cümlədən satınalmalar, əmlakların satılması və əl dəyişməsi, satınalmalar zamanı istifadə edilən meyarlar və şərtlər əlçatan deyil.
5. Şəxsiyyət vəsiqələrində e-imzanın aktiv edilməməsi problem olaraq qalır. Asan imzanın alınması, istifadəsi və saxlanması üçün aylıq xərc ödəniş tələb olunması bütün elektron xidmətlərdən istisnasız istifadə imkanına xələl gətirir və istifadəçi sayının aşağı göstəricisini dəyişmir.
6. Ölkə üzrə (hətta Bakı şəhərinin xeyli hissəsi də daxil olmaqla) keyfiyyətli internet xidmətinə çatımlılıq problemi davam edir. Bu da keyfiyyətli internetə çatım imkanını məhdudlaşdırır.
7. Regionlarda və xüsusilə də kəndərdə geniş zolaqlı internet əsasən ADSL xidməti ilə köhnə mis telefon xətti üzərindən verilir. Pandemya dövründə distant təhsil almalı olan 1,7 milyon təhsil sektoru faydalananları ciddi problemlərlə qarşılaşdı və keyfiyyətli distant təhsil problemi qabarıq göründü. Hələ də bu problemi kökdən həlli istiqamətində sistemli fəaliyyət müşhidə edilmir.

## TÖVSİYƏLƏR

1. Saytların böyük əksəriyyətində axtarış sistemində açar sözlərə görə axtarış qaneedici deyil. Habelə sayt strukturunda məlumatların yerləşdirildiyi başlıqlar vahid standartda təqdim edilmir. Xüsusilə də "Google" üzərindən sadə axtarışla tapılan açıq informasiyaların saytın özündə tapılmasının mümkün olmaması və ya çox qarışıq alt başlıqlarda gizlədilməsi halları çox yayqındır. Odur ki, infrastruktur yaradılarkən və istifadə edilərkən bu problemlərin aradan qaldırılması yaxşı olar.

2.Dövlət qurumlarında qanunvericilikdə nəzərdə tutulan informasiya infrastrukturunun formalaşdırılması, tam başa çatdırılması və təkmilləşdirilməsi vacibdir. Habelə, qanunvericilikdə nəzərdə tutulan qaydada keyfiyyətli, dolğun, dəqiq informasiyaların saytda yerləşdirilməsi idarəetmədə şəffaflığı artırar, neqativ halları aradan qaldırar. Xüsusilə də dövlət qurumlarının əksəriyyətində tenderlərin keçirilməsi ilə bağlı şəffaflıq nəzərə çarpmır.

3.Dövlət qurumundan informasiya sorğularının elektron formatda alınması üçün bütün saytlarda ayrıca xidmət bölməsi olmalı, online müraciət formalarında ərizə və şikayətlər üçün olan bölmələrdə hökmən informasiya sorğusu üçün xüsusi bölmə olmalı, həmin bölmələrdə ictimai informasiyalar üçün şəxsiyyəti identifikasiya edən bilgilər (Şəxsiyyət vəsiqəsi və FİN nömrəsi) tələb olunmamalı, Bu məlumatlar yalnız fərdi məlumatlar bölməsi aktiv olduqda məcburi tələb olmalıdır. Qanunla sorğuçunu identifikasiya edən bilgilərdən hər hansı birinin varlığında digər bilgilər üçün məcburi doldurma şərti tələb olunmamalıdır.

4.Dövlət qurumu ilə bağlı bir çox sənəd ziyarətçiyə təqdim olunarkən yalnız məcburi yükləmə sistemi tətbiq edilir. Əks əlaqə üçün informasiya sorğusu seçiminin olmaması, habelə, elektron müraciət zamanı əlavə şəxsi məlumatların tələb edilməsi ziyarətçi üçün əlavə çətinliklər yaradır.

5.Açıq və keyfiyyətli informasiyaların yayılma formasında ziyarətçilər üçün əlavə texniki çətinliklər var. Skayn olunmuş və ya PDF formatda olan məlumatlardan istifadə etmək olmur. İnformasiyaların "maşın oxuyan" formatında (məs.word) olması tövsiyə olunur.

6.Dövlət qurumları cəmiyyət üçün zəruri informasiyaları operativ açıqlamamaqda davam edir. Bu da cəmiyyətdə dezinformasiyanı və informasiya ilə manufliyasiyanı bəsləyir. Bu istiqamətdə zəruri siyasət dəyişməli operativ məlumatlar dərhal cəmiyyətə təqdim edilməlidir.

7. Dövlət qurumlarının informasiya açıqlığı üzərində dövlət nəzarəti qənaətbəxş deyil. Qurumlarda korrupsiyanın önlənməsi, şəffaflığın təmin edilməsi və İnformasiya əldə etmək hüququnun təminatı baxımından üst nəzarət mexanizması və ictimai nəzarət mexanizması yetərli və işlək deyil. Bunların formalaşması üçün əməli addımlar atılmalıdır.

8. İnformasiya sahibi olan və hesab edilən bütün qurumların həm fəaliyyət hesabatları həm də illik maliyyə hesabatları əlçatan olmalı, o cümlədən Hesablama Palatasının qurumlarda apardığı yoxlamaların nəticələri qurumların resurslarında əlçatan şəkildə yerləşdirilməlidir.

9. Bütün dövlət qurumları üçün vahid elektron informasiya sorğu forması tətbiq edilməli, ümumi istifadə üçün tələb olunan informasiyalar sorğulandıqda qanunda tələb olmayan şəxsi məlumatların qanunsuz toplanması praktikası ləğv edilməlidir.

10. Saytlarda olan qaynar xətlərin işləkliliyi təmin edilməli, effektiv xidmət bütün resusrslarda bərabər tələb kimi formalaşmalı, bunun standartlrı həm qurumlar, həm istifdəçilər üçün elan edilməlidir.

11. İnformasiya Əldə etmək haqqında Qanunda müəyyən edilən problemlərin aradan qaldırılması üçün ictimaiyyət nümayəndələrinin iştirakçılığı ilə yeni qanun təklifləri hazırlanmalı, mzakirə edilməli və qəbul edilməlidir.